QARABAĞ AZƏRBAYCANDIR!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 061 (6261) 9 aprel 2021-ci il Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## "Əgər Azərbaycana qarşı hər hansı təhdid olarsa, ona hüquq çərçivəsində lazımi cavab veriləcək"

Bax 5



İslam Əməkdaşlıq Təşkilatı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zamanı ölkəmizin haqlı mövqeyini daim dəstəkləyib. Təşkilatın bu məsələ ilə bağlı mövqeyi bütün platformalarda səsləndirilib. Bu mövqe 44 günlük Vətən müharibəsi...

# "Təcavüzkar bizim torpaqlarımızdan qovuldu və indi bərpa vaxtıdır"

## Prezident İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatının Baş katibini qəbul edib



Bax 2

## YAP Gənclər Birliyinin təqdimatı keçirilib

Bax 6



Aprelin 8-də Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin təşkilatçılığı ilə "Azərbaycan gənclərinin beynəlxalq arenada təmsilçiliyi" movzusunda Milli Məclisin deputatı, YAP İdarə Heyətinin üzvü Ramin Məmmədovla görüşü keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbiri giriş söz ilə açan YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov Azərbaycanda dövlət gənclər siyasətinin uğurlarından danışıb, gənclərin...

## Amnesty International: "Ermənistanda ifadə, dinc toplaşmaq azadlığı məhdudlaşıb"




Beynəlxalq qeyri-hökumət təşkilatı olan Amnesty International, 2020-2021 hesabatını çərşənbə günü açıqlayıb. SİA xəbər verir ki, hesabatda ayrı bir fəsil Ermənistana həsr edilmişdir ki, bu barədə Ermənistana məxsus armenianreport.com saytı da məlumat yayıb. Hesabatda qeyd olunur ki, Azərbaycanla hərbi konfliktdən sonra və hərbi vəziyyət rejiminin tətbiqi ilə əlaqədar Ermənistan vətəndaşları çaşqınlıq içərisindədir...

Bax 6

## Haber Global: "İskəndər M" raketi asan şəkildə terrorçuların əlinə düşə bilər"

Türkiyənin Haber Global telekanalı "İskəndər M" raket kompleksinin 44 günlük Vətən müharibəsində istifadə edilməsi ilə bağlı süjet hazırlayıb. Materialda bildirilir ki, Azərbaycanın ANAMA minatəmizləmə agentliyi bu yaxınlarda Şuşada "İskəndər M" raketinin...



Bax 7

## Cibutili diplomat: Ağdama səfərimiz zamanı bu şəhərin tamamilə dağıdıldığını gördük

Bax 5



Ağdama səfərimiz zamanı şəhərin tamamilə dağıdıldığının şahidi olduq. Gəncədə isə müxtəlif raket atəşləri nəticəsində şəhərə dəymiş ziyanı öz gözlərimizlə gördük. İƏT olaraq işğaldan azad edilmiş bölgələrdə normal həyatın...

### Koronavirus peyvəndi olanlara VACİB XƏBƏRDARLIQ!



Bax 12

### Əli Kərimli Elçibəyi aldadaraq 2 milyon dolları necə mənimsəyib?



Bax 14

### "Barselona" 9 futbolçu ilə yolları ayırır



Bax 16

# "Təcavüzkar bizim torpaqlarımızdan qovuldu və indi bərpa vaxtıdır"

*Prezident İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatının Baş katibini qəbul edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 8-də İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd əl-Osaymini qəbul edib. AZƏRTAC xəbər verir, Baş katibi salamlayan Prezident İlham Əliyev dedi:

- Gəldiyinizə görə təşəkkür edirəm. Siz bizi müntəzəm olaraq ziyarət edirsiniz. Bu, bizim əməkdaşlığımızın və sizin ölkəmizə münasibətinizin çox yaxşı nümayişidir. Əvvəla söhbətimizə başlamazdan əvvəl mən İslam Əməkdaşlıq Təşkilatı və Azərbaycan arasında əməkdaşlığın inkişafına verdiyiniz müstəsna töhfəyə görə sizi Azərbaycanın dövlət ordeni - "Dostluq" ordeni ilə mükafatlandırmaq istəyirəm.

Azərbaycan Prezidenti İlham Əliyev "Dostluq" ordenini Yusif bin Əhməd əl-Osayminə təqdim etdi.

Prezident İlham Əliyev: Həmçinin fürsətdən istifadə edərək Azərbaycan və Ermənistan arasında münaqişənin həll olunması ilə bağlı Azərbaycana davamlı dəstəyinizə görə sizə minnətdarlığımı bildirmək istəyirəm.

Bildiyiniz kimi, münaqişə bizim tərəfimizdən birtərəfli qaydada həll olunub. 44 günlük müharibə Azərbaycan torpaqlarının 30 il davam edən və bir milyondan çox azərbaycanlının iztirabına, şəhər və kəndlərimizin tamamilə dağıdılmasına gətirib çıxaran işğala son qoydu. İndi əcnəbi jurnalistlər və diplomatlar işğaldan azad olunmuş ərazilərə səfər edəndə onlar görürlər ki, ermənilər hər şeyi dağıdıblar. Bütün şəhərlər, bütün kəndlər, tarixi və dini məkanlar, məscidlər, qəbiristanlıqlar dağıdılıb. Bu, islamofobiyanın, Azərbaycanofobiyanın, vandalizmin təzahürüdür. Çünki dəfələrlə dediyim kimi, bizim şəhərlərimiz birinci Qarabağ müharibəsi ərzində deyil, sonradan işğal dövründə dağıdılıb. Bu, bütün Azərbaycan və İslam irsini Azərbaycanın bu tarixi torpaqlarından silmək və həmin torpaqların mənşəyini dəyişdirmək üçün qəsdən yürüdülən siyasət idi. Mən bilirəm ki, səfirlər, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə kontakt qrupun üzvləri bu yaxınlarda işğaldan azad edilmiş ərazilərə səfər ediblər və bunu öz gözləri ilə görüblər. Onlar açıq bəyanatlar veriblər və biz buna görə çox minnətdarıq. İndi biz bütün dünyanın bunu görməyini, başa düşməyini istəyirik ki, bizim atdığımız addımlar haqq işi idi, beynəlxalq hüquqa, BMT-nin Nizamnaməsinə, özünümüdafiə hüququmuza və ədalətə əsaslanırdı. Biz ədaləti bərpa etdik. Təcavüzkar bizim torpaqlarımızdan qovuldu və indi bərpa vaxtıdır. Lakin bu, vaxt aparacaq. Çünki, əlbəttə ki, ən böyük problem minalardır. Müharibə bitəndən sonra bizdə artıq onlarla itki olub, o cümlədən minalardan ölənlər olub. Ermənistan bizə minaların xəritəsini verməyib. Bu, daha bir müharibə cinayətidir. Çünki, bunu etmək onların borcudur. Lakin müharibənin artıq aylardır bitməsinə baxmayaraq, onlar azərbaycanlılara qarşı bu siyasəti davam etdirirlər. Lakin biz lazım olan hər şeyi edəcəyik. Minatəmizləmə prosesi gedir. Biz artıq yenidənqurma işlərini planlaşdırırıq. Şəhərlərin, kəndlərin baş planları artıq hazırlanma prosesindədir və əlbəttə ki, biz İslam dünyasından olan qardaşlarımızın gəlib onların bizim tarixi irsimizə nə etdiklərini və yenidənqurma prosesini görməsini istəyirik. Sözsüz ki, mən sizi gələcəkdə, biz yenidənqurma prosesinə başlayandan sonra da görməyə şad olardım.





Baş katib Yusif bin Əhməd əl-Osaymin: Cənab Prezident, əvvəlcə məni və Təmas Qrupuna daxil olan ölkələrdən nümayəndə heyətini dəvət etdiyinizə, hadisələrin necə cərəyan etdiyini görmək imkanının yaradılması üçün Sizə təşəkkür etmək istəyirəm. Mən Sizinlə olan şəxsi münasibətimizə böyük dəyər verirəm, bu, hər zaman belə olub və belə də davam edəcək.

Cənab Prezident, Sizi təbrik etmək istəyirəm, çünki hər dəfə Bakıya səfərə gələndə, hər tərəfdə yenilik və inkişafın şahidi oluram, şəhər sonuncu dəfə gördüyümdən daha fərqli olur. Əminəm ki, bütün bu inkişafın, tərəqqinin və gərgin işin arxasında Siz dayanmısınız və bu, hər bir azərbaycanlının istəyidir.

Cənab Prezident, bu böyük Qələbə münasibətilə Sizi təbrik edirəm. Bu yalnız Sizin deyil, bizim də qələbəmizdir və biz çox xoşbəxtik. Mən Sizin liderliyinizi və səbir nümayiş etdirməyinizi təqdir edirəm. Siz 30 il ərzində torpaqların işğalı məsələsində təmkinlə davrandınız, bunun başqa bir ölkədə ola biləcəyinə inanmıram. Sizin məsələniz haqq işi idi - torpaqlar sizin idi, beynəlxalq hüquq tərəfinizdə idi, İslam Əməkdaşlıq Təşkilatı yanınızda idi və onun qətnamələri sizi dəstəkləyirdi. Burada söhbət ölkənizin ərazisinin 20 faizindən, Azərbaycanın böyük bir hissəsindən gedir. Allaha şükürlər olsun ki, Sizin müdrikliyiniz və təmkinliyiniz öz bəhrəsini verdi və məsələ müsbət həll olundu.

## Vladimir Putin Prezident İlham Əliyevə telefonla zəng edib



Aprelin 8-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Telefon söhbəti zamanı Dağlıq Qarabağ ətrafında vəziyyət, Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin 2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar tarixli bəyanatlarına müvafiq olaraq vəziyyətin daha da sabitləşdirilməsinin müzakirəsi davam etdirilib.

Söhbət zamanı xüsusi olaraq sülhün, təhlükəsizliyin və regionun davamlı sosial-iqtisadi inkişafının təmin olunması, həmçinin nəqliyyat kommunikasiyalarının bərpası üzrə işin gedişi ətraflı şəkildə nəzərdən keçirilib. Bu baxımdan aprelin 7-də Moskvada Rusiya-Ermənistan yüksək səviyyəli görüşünün yekunları nəzərə alınıb. Müxtəlif formatlarda təmasların fəallaşdırılması qərara alınıb.

# 11 aprel seçkiləri: İlham Əliyevin parlaq qələbəsi xalqın bu siyasətə tam dəstəyinin reallığıdır!

Prezident İlham Əliyev: “Azərbaycanda seçkilərin keçirilməsində artıq böyük təcrübə var və biz ən qabaqcıl təcrübəni öyrənirik, Azərbaycanda tətbiq edirik”



Demokratik cəmiyyətlərdə hakimiyyətin mənbəyi xalqdır. Bu mənada demokratik seçkilər dövlətin və ictimai həyatın idarə olunmasında vətəndaşların əsas iştirak formasıdır. İstənilən dövlətdə seçkilərin ədalətli və şəffaf keçirilməsi həmin cəmiyyətin demokratik mühitinin yüksək olmasından xəbər verir. Bu prosesin məntiqi yekunu olaraq hər bir xalq öz taleyini inandığı siyasi qüvvəyə etibar edir. Bu gün təqdirəlayiq haldır ki, respublikamızda seçkilərin demokratik keçirilməsi ilə bağlı kifayət qədər təcrübə və zəngin ənənə mövcuddur. Bu ənənənin əsasının qoyulmasının tarixi 17 il əvvələ gedib çıxır.

Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra demokratik seçki mühitinin formalaşdırılması Azərbaycanda hüquqi dövlət quruculuğunun əsas istiqamətlərindən birinə çevrilmişdir. Heydər Əliyevin Prezident seçilməsi ölkəmizdə xalqın öz rəhbərinə sonsuz məhəbbətinin ifadəsi olmaqla bərabər, demokratiyanın inkişaf etdirilməsinin, vətəndaş cəmiyyəti quruculuğunun, o cümlədən seçki sisteminin ildən-ilə təkmilləşdirilməsinin əsasını qoymuşdur.

1993-cü ilin iyun ayından etibarən ölkəmizdə 6 prezident, 7 parlament, 6 bələdiyyə seçkisi, o





cümlədən 4 referendum keçirilmişdir. Ayrı-ayrı vaxtlarda parlamentə və bələdiyyələrə əlavə və təkrar seçkilər də təyin olunmuşdur. Bütün bu seçki və referendumlara dair beynəlxalq təşkilatların verdikləri müqayisəli rəylər onu təsdiq edir ki, Azərbaycanda seçkilərdən-seçkilərə vətəndaşların siyasi şüuru və seçki mədəniyyəti daha da yüksəlmişdir.

Demokratik ölkələrin seçki təcrübəsi göstərir ki, hər bir seçkinin uğurunu təmin edən şərtlər sırasında siyasi iradə və ictimai-siyasi sabitlik amilləri ilə yanaşı, təkmil seçki qanunvericiliyinin də olması vacibdir. Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkəmizdə demokratik standartlara cavab verən azad, ədalətli, obyektiv seçkilərin keçirilməsi üçün əsas prioritetləri müəyyənləşdirmişdir. Əsas Qanunda təsbit olunmuş müddəalara istinadən Azərbaycanda seçkilərin hüquqi bazası formalaşdırılmışdır. Konstitusiyanın 4-cü maddəsinə əsasən, xalqın seçdiyi səlahiyyətli nümayəndələrdən başqa heç kəsin xalqı təmsil etmək, xalqın



adından danışmaq və müraciət etmək hüququ yoxdur. Əsas Qanunun 56-cı maddəsinə əsasən, hər bir Azərbaycan vətəndaşının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ var.

Bütövlükdə respublikamızda demokratik institutlar inkişaf etdikcə seçki sisteminin təkmilləşdirilməsi prosesi ötən illərdə uğurla həyata keçirilmişdir. Əlbəttə, bütün bunların kökündə Azərbaycan hakimiyyətinin ölkədə demokratiyanın inkişafı ilə bağlı qətiyyətli və ardıcıl siyasəti dayanır. Ölkəmizdə keçirilmiş hər bir seçki əvvəlkinə nisbətən beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində irəliyə doğru atılmış addım kimi qiymətləndirilir. Bunu nüfuzlu beynəlxalq təşkilatların seçkilərə dair verdikləri rəylərin müqayisəli təhlili göstərir. 2003-cü il oktyabrın 15-i - xalqın demokratik seçiminin dönməzliyini və ölkədə demokratik islahatların davamlılığına sadiqliyini bir daha sübut etdi.

2003-cü il oktyabrın 15-də azad, demokratik və şəffaf şəraitdə keçirilmiş prezident seçkiləri Seçki Məcəlləsinin mütərəqqi və təkmil sənəd olduğunu tam təsdiqlədi. Azərbaycan Respublikası prezidentliyinə bütün namizədlərə öz seçki kampaniyalarını qanunamüvafiq şəkildə aparmaq üçün lazımi mühit və bərabər imkanlar yaradıldı. Bununla yanaşı, fəal seçki kampaniyasının aparılması, seçkilərə texniki hazırlığın yüksək səviyyədə təşkili, MSK və dairə seçki komissiyalarının işi müsbət məqamlar kimi ATƏT, AŞ və ATƏT parlament assambleyalarından ibarət Beynəlxalq Seçki Müşahidəsi Missiyasının seçkilərə dair rəyində əksini tapdı. 15 oktyabr 2003-cü ildə Azərbaycanda keçirilmiş prezident seçkiləri xalqın demokratik seçiminin dönməzliyini və ölkədə demokratik islahatların davamlılığına sadiqliyini bir daha sübut etdi, demokratik cəmiyyət quruculuğunda mühüm irəliləyiş kimi tarixə düşdü. Bir sözlə, yeni Seçki Məcəlləsi Azərbaycanın seçki sisteminə verilmiş ən mühüm töhfələrdən biri oldu. Bu sənədin qəbulu ölkəmizdə möhkəm və səmərəli fəaliyyət göstərə bilən seçki sisteminin yaradılmasına gətirib çıxarmışdır.

## Son 17 il - seçki sisteminin təkmilləşdirilməsi istiqamətində görülən işlərin əyani təsdiqi

Beynəlxalq miqyasda respublikamızın demokratik imicinin daha da yüksəlməsinə nail olan Prezident İlham Əliyev də seçki sisteminin daha da təkmilləşməsini və hər bir seçkinin ədalətli və şəffaf keçirilməsini diqqət mərkəzində saxlayır. Məhz cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etməsindən sonra seçki sisteminin təkmilləşdirilməsi istiqamətində görülən işlər bunun əyani təsdiqidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2005-ci il mayın 11-də parlament seçkilərindən bir qədər əvvəl imzaladığı “Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsinə dair” sərəncamı ölkəmizdə keçirilən seçkilərin daha da demokratikliyinin təmin edilməsi istiqamətində mühüm əhəmiyyət kəsb etmişdir. İlk gündən həm ölkə daxilində, həm də beynəlxalq aləmdə böyük rəğbətlə qarşılanan sərəncamda azad və ədalətli seçkilərin keçirilməsinə mane olan amillərin aradan qaldırılması yolları birmənalı göstərilmiş, eləcə də seçkiqabağı mühitin demokratikləşdirilməsi ilə bağlı konkret vəzifələr öz əksini tapmışdır.

Ardı Səh. 4

Əvvəli Səh. 3

# 11 aprel seçkiləri: İlham Əliyevin parlaq qələbəsi xalqın bu siyasətə tam dəstəyinin reallığıdır!

## Prezident İlham Əliyev: "Azərbaycanda seçkilərin keçirilməsində artıq böyük təcrübə var və biz ən qabaqcıl təcrübəni öyrənirik, Azərbaycanda tətbiq edirik"



Sərəncamda seçki rəsmilərinin təlim kurslarından keçməsi məqsədilə müvafiq proqramlar hazırlanması, bu sahədə bütün siyasi qüvvələrlə, beynəlxalq təşkilatlarla hərtərəfli əməkdaşlığın həyata keçirilməsi, seçki prosesinə qanuna zidd olaraq müdaxilə edən mərkəzi və yerli icra hakimiyyəti orqanları rəhbərlərinin, digər dövlət məmurlarının hüquqi məsuliyyətə cəlb edilməsi, seçkilərdən sonra siyasi mənsubiyyətə görə vətəndaşların təqibinə yol verilməməsi əksini tapmışdır. Televiziya kanallarında deputatlığa namizədlərin bərabər əsaslarla təbliği və siyasi platformaların müzakirəsini təmin edən proqramların hazırlanması, bütün deputatlığa namizədlərin kütləvi informasiya vasitələrindən bərabər qaydada istifadə etmələri və onlar üçün bərabər təbliğ imkanlarının yaradılması, ixtisaslaşmış ictimai rəyçilər tərəfindən "exit poll" prosesinin aparılması, vətəndaşların sərbəst toplaşmaq azadlığının təmini, seçici vəsiqələrinin çatdırılması, seçici siyahılarının dəqiq, dürüst tərtibi və açıq nümayiş etdirilməsi üçün zəruri tədbirlərin görülməsi kimi məsələlər sərəncamda göstərilmişdir.

Sərəncamdan sonra seçki praktikasının təkmilləşdirilməsi sahəsində görülən tədbirlərin səmərəliliyinin artırılması, Seçki Məcəlləsinin müddəalarının seçkilərə hazırlıq dövründə və səsvermə günü tam və şərtsiz həyata keçirilməsi, vətəndaşların seçki hüquqlarının daha dolğun təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti 2005-ci il oktyabrın 25-də "Milli Məclisə seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında" növbəti sərəncam imzalamışdır. Sərəncamla MSK-ya seçici vəsiqələrinin paylanması və seçici siyahılarının dəqiqləşdirilməsi ilə əlaqədar yaranmış problemləri nəzərə alaraq, seçicilərin səsvermə günü seçki bülletenlərini aldıqları zaman barmaqların gözə görünməyən mürəkkəblə işarələnməsi qaydalarını hazırlamaq, seçicilərin ünvanlarının tam göstərildiyi seçici siyahıları ilə bütün maraqlı şəxslərin tanış olmaları üçün müvafiq şərait yaradılmasını təmin etmək tövsiyə olunmuşdur.

Bütün bunların nəticəsi idi ki, 2005-ci ildə Azərbaycan Respublikasının Milli Məclisinə keçirilmiş seçkilər demokratikləşmə prosesini sürətləndirən bir çox pozitiv yeniliklərlə yadda qalmış, həmçinin beynəlxalq müşahidəçilər və təşkilatlar seçkilərin şəffaflığına, ədalətliliyinə, demokratik prinsiplərə uyğun keçirilməsinə dair müsbət rəy vermişlər.

### Seçkilərin demokratikliyinin təmin edilməsi istiqamətində görülən işlər çoxşaxəlidir



Təbii ki, respublikamızda seçkilərin demokratikliyini təmin etmək üçün görülən işlər yalnız seçki qanunvericiliyinin təkmilləşdirilməsi ilə məhdudlaşmamışdır. Belə ki, son illərdə Azərbaycanda geniş vüsət alan quruculuq və abadlıq işləri seçki komissiyalarının da rahat fəaliyyəti üçün daha müasir iş şəraitinin yaradılmasına mühüm təsir göstərmişdir. Azərbaycanda mövcud olan əksər dairə və məntəqə seçki komissiyaları ən müasir tələblər səviyyəsində inzibati binalarla təmin olunmuş, bir qismi isə əsaslı təmir edilmişdir. Prezident və parlament seçkilərinin, referendumların, bələdiyyələrə seçkilərin hazırlanmasını və keçirilməsini təmin edən əsas dövlət orqanı olan MSK-nın iyul ayından etibarən yeni binada fəaliyyət göstərməsi bu qurumun fəaliyyətinin daha səmərəli təşkilinə geniş imkanlar açıb. MSK-nın yeni binasının açılışında Prezident cənab İlham Əliyev də iştirak edib və dövlətimizin başçısı seçkilərin demokratikliyinin təmin edilməsi ilə bağlı görülən işləri təqdir edərək deyib: "Azərbaycanda seçkilərin keçirilməsində artıq böyük təcrübə var və biz ən qabaqcıl təcrübəni öyrənirik, Azərbaycanda tətbiq edirik. Bütün işlər beynəlxalq standartlara uyğun şəkildə qurulubdur. Azərbaycanda seçkilərin keçirilməsi prosesi ildən-ilə daha da təkmilləşir, şəffaflıq tam şəkildə təmin edilir və insanlar azad, sərbəst şəkildə öz iradələrini ifadə edirlər".

Seçicilərlə maarifləndirmə işlərinin aparılması, seçki hüquqları ilə bağlı çoxsaylı sənəd nümunələrinin hazırlanması, seçici siyahılarının dəqiqləşdirilməsi ilə əlaqədar yeni üsulların tətbiq edilməsi də son illərdə həyata keçirilən uğurlu tədbirlərdəndir.

Azərbaycanın inkişaf edən seçki sistemində də demokratik ab-havanın, şəffaflığın təmin edilməsi üçün müasir informasiya texnologiyalarının tətbiqi hər zaman diqqət mərkəzindədir. Bununla əlaqədar olaraq son prezident seçkilərində ölkəmizin seçki praktikasına daha bir yenilik əlavə edilmişdir. Regionda ilk dəfə məhz Azərbaycanda seçkinin gedişatının internet vasitəsilə birbaşa izlənilməsi sistemi yaradılmışdır. Azərbaycan hakimiyyətinin aşkarlığın daha çox təmin edilməsi üçün bütün təşəbbüslərə, yeniliklərə yüksək həssaslıq nümayiş etdirməsi dünyada təqdir olunur.

Seçki sisteminin təkmilləşdirilməsi ilə bağlı həyata keçirilən tədbirlər, o cümlədən qanunvericiliyin təkmilləşdirilməsi Azərbaycanda formalaşdırılan demokratik seçki mühitinin daha da möhkəmləndirilməsinə xidmət edir. Bu, həm də onun təsdiqidir ki, Azərbaycanda seçkilərin azad və ədalətli keçirilməsi üçün ölkə rəhbərliyinin güclü siyasi iradəsi var. Seçkilərdə demokratiyanın təmin olunması həm də respublikamızın beynəlxalq aləmdə yerinin möhkəmlənməsində əsas amillərdən biridir.

### 2018-ci il 11 aprel seçkiləri - İlham Əliyevin parlaq qələbəsi xalqın bu siyasətə tam dəstəyinin reallığıdır

11 aprel 2018-ci il prezident seçkiləri və bu seçkilərin nəticələri bir daha təsdiq etdi ki, xalqımız ulu öndər, dünya miqyaslı siyasətçi Heydər Əliyev tərəfindən əsası qoyulan siyasi kursa alternativ görmür. Ədalətli, şəffaf demokratik prinsiplərin əsasında qanunauyğun, seçicilərin fəallığı və mütəşəkkiliyi ilə keçirilən seçkilərdə cənab İlham Əliyevin parlaq qələbəsi xalqın bu siyasətə tam dəstəyini ifadə etdi. Azərbaycan xalqı cənab İlham Əliyevə yenidən etimad göstərməklə həm də bu günə kimi görülmüş işlərə yüksək qiymət verdi. Çox saylı yerli və beynəlxalq müşahidəçilər, ictimaiyyət tərəfindən diqqətlə izlənilən seçkilərdə cənab İlham Əliyevin parlaq qələbəsi iqtidar-xalq birliyinin sarsılmaz olduğunu nümayiş etdirməklə yanaşı, bütövlükdə Azərbaycan xalqının zəfəridir. Bu zəfər ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 95 illiyinə, müstəqil respublikamızın varisi olduğu müsəlman şərqində ilk parlamentli respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyinə mühüm töhfədir.

Son 17 ildə beynəlxalq tələblər səviyyəsində həyata keçirilən hüquq islahatları deməyə əsas verir ki, hələ 2003-cü ildə prezident seçkiləri ərəfəsində hər bir vətəndaşın layiqli prezidenti olacağını bəyan etmiş möhtərəm İlham Əliyev bu vədini əməli işi ilə doğrultmuş, hüquq sisteminin daha da təkmilləşməsini uğurla təmin etmişdir. Ölkə vətəndaşları inanır ki, Azərbaycanda demokratiyanın və vətəndaş cəmiyyəti təsisatlarının inkişafına xidmət üçün bu islahatlar qarşıdakı illərdə də inamla və qətiyyətlə davam etdiriləcəkdir.

Və bu gün son 17 ildir ki, Azərbaycan xalqının etimadı əsasında ölkəyə rəhbərlik edən Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu şaxələndirərək, uğurla reallaşdırması nəticəsində perspektiv baxımdan əhəmiyyətli nəticələrin əldə olunmasına səbəbkar olub. Ən əsası isə, 30 il həsrətində olduğumuz Qarabağ azadlığına qovuşub. Qarabağ Azərbaycandır reallığı, Müzəffər Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi altında cəmi 44 günə mümkünsüzü mümkün etdi! Ermənistanın hərbi kapitulyasiyasına nail olduq! Bəşəriyyətə haqqın, ədalətin böyük dövlətlərin tapdağından qurtara biləcək bir dövlətin - Azərbaycanın var olduğunu sübut etdi, "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" - deyən Ulu Öndərin arzusunu reallaşdırdı. Bütün dünya Azərbaycanın nə qədər güclü və qüdrətli dövlət olduğunu bir daha gördü.

Bir sözlə, inanırıq ki, bundan sonra da Azərbaycanda keçirilən seçki sistemi demokratik inkişafın göstəricisi kimi tarixə həkk olunacaq, seçki təcrübəsi baxımından yaxşı bir nümunə olacaq.

***R.KAMALQIZI***




# “Əgər Azərbaycana qarşı hər hansı təhdid olarsa, ona hüquq çərçivəsində lazımi cavab veriləcək”

**İslam Əməkdaşlıq Təşkilatı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zamanı ölkəmizin haqlı mövqeyini daim dəstəkləyib. Təşkilatın bu məsələ ilə bağlı mövqeyi bütün platformalarda səsləndirilib. Bu mövqe 44 günlük Vətən müharibəsi dövründə də dəyişmədi. AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd əl-Osayminlə aprelin 8-də keçirilən görüşdən sonra keçirilən mətbuat konfransında deyib.**

Nazir qeyd edib ki, Azərbaycandakı səfirlər vəziyyətlə yerində tanış olublar, işğaldan azad edilən bölgələrə səfər ediblər. Onlar Ermənistanın dinc xalqımıza qarşı hərbi təcavüzü ilə yaxından tanış olublar.

“Üçtərəfli Bəyanatın imzalanmasından sonra yaranmış vəziyyət sayəsində yeni təhlükəsizlik formatı və inkişafın əsasını təşkil edən şərait formalaşıb. Keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıtması və işğaldan azad edilən ərazilərin yenidən qurulması istiqamətində işlər görülür. Təəssüf ki, qarşı tərəfdən bir sıra qeyri-konstruktiv addımların şahidi oluruq. Otuz il ərzində Ermənistan işğal etdiyi əraziləri minalayaraq istifadəsiz hala gətirib və bu ərazilərin xəritəsini Azərbaycana vermək istəmir. Bütün aidiyyəti qurumlara bu barədə sənədlər, hesabatlar təqdim edilib. Son günlər ərzində vətəndaş cəmiyyətinin üzvləri tərəfindən də bununla bağlı petisiya hazırlanır. Bu baxımdan, dost dövlətləri Azərbaycana dəstəkləməyə çağırırıq”, - deyə Ceyhun Bayramov bildirib.

Nazir qeyd edib ki, Ermənistan Xarici İşlər Nazirliyinin qeyri-adekvat açıqlamaları qarşı tərəfin reallığı düzgün qiymətləndirməməsindən irəli gəlir. Əgər Azərbaycana qarşı hər hansı təhdid olarsa, ona hüquq çərçivəsində lazımi cavab veriləcək.

İslam Gənclər Forumunun yaradılmasının bilavasitə Azərbaycanın təşəbbüsü ilə reallaşdığını qeyd edən C.Bayramov bildirib: “Azərbaycan Prezidentinin müvafiq Sərəncamına əsasən, İslam ölkələrindən olan tələbələr üçün xüsusi təqaüd proqramı hazırlanıb. İƏT-Azərbaycan münasibətləri uğurla inkişaf edir. Bu əlaqələrin davamlı surətdə inkişaf edəcəyinə inanırıq”.

“Otuz illik işğaldan sonra Azərbaycan torpaqları azad edilib və əsl sahiblərinə qaytarılıb. Bu münasibətlə Azərbaycan Prezidentini və xalqını təbrik edirəm. Bu, bütün İslam dünyasının qələbəsidir. İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərdən biri olan Azərbaycan öz hüquqlarını bərpa edib. Bu, həqiqətən də tarixi hadisə və zəfərdir.” Bu sözləri də keçirilən mətbuat konfransında İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd əl-Osaymin deyib. O qeyd edib ki, qarşıda böyük yenidənqurma işləri var. Minalanmış ərazilərin xəritələrinin Azərbaycana verilməməsi çox ciddi məsələdir və yenidənqurma işlərini ləngidir.

Baş katib deyib ki, Ermənistan işğal etdiyi ərazilərdə məscidləri də dağıdıb. Bu, əsl vandalizm aktıdır. Bütün beynəlxalq təşkilatlar Qarabağda yenidənqurma işlərini dəstəkləməlidirlər. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanın bütün səylərini dəstəkləyir və bundan sonra da dəstəkləyəcək.

# “Türkiyə-Azərbaycan əlaqələri bu gün ən yüksək zirvədədir”

*Milli Məclisin sədri Sahibə Qafarova Türkiyənin ölkəmizdəki səfiri Erkan Özoralla görüşüb*



**Aprelin 8-də Milli Məclisin sədri Sahibə Qafarova Azərbaycanda diplomatik fəaliyyətini başa çatdıran Türkiyə Respublikasının fövqəladə və səlahiyyətli səfiri Erkan Özoralla görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə dost və qardaş ölkələrimiz arasında münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi qeyd olunub. Bildirilib ki, Türkiyə ilə Azərbaycan arasında mövcud olan strateji münasibətlər dərin tarixi köklərə və qardaşlıq ənənələrinə söykənir.

Sahibə Qafarova Türkiyə-Azərbaycan əlaqələrinin bu gün ən yüksək zirvədə olduğunu söyləyib. Qeyd edilib ki, Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan və Türkiyə dünya miqyasında bir-birinə ən yaxın olan ölkələrdir. Sədr Azərbaycanla Türkiyənin təşəbbüskarı və iştirakçısı olduğu layihələrin əhəmiyyətindən danışaraq, bu layihələrin iki qardaş ölkənin inkişafına mühüm töhfələr verdiyini, regionda sabitlik və əməkdaşlığın genişlənməsində vacib rol oynadığını deyib.

Sədr ölkələrimizin parlamentləri arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu, hər iki ölkənin parlamentində genişterkibli dostluq qruplarının fəaliyyət göstərdiyini söyləyib. Bildirilib ki, deputatlarımızın müxtəlif nüfuzlu beynəlxalq platformalarda görüşləri tərəfləri maraqlandıran məsələlərin müzakirəsi baxımından çox önəmlidir.

Azərbaycan ilə Türkiyə arasında yüksəksəviyyəli münasibətlərin inkişafında hər iki ölkədə fəaliyyət göstərən diplomatik korpusların rəhbərlərinin üzərinə böyük məsuliyyətin düşdüyünü bildirən Milli Məclisin sədri səfir Erkan Özoralın ölkəmizdə fəaliyyət göstərdiyi dövrdə əlaqələrimizin daha da dərinləşməsinə müsbət töhfələr verdiyini qeyd edib. O, Erkan Özoralın növbəti vəzifəsinin öhdəsindən də yüksək peşəkarlıqla gələcəyindən əminliyini ifadə edərək, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Səmimi qəbula görə minnətdarlığını bildirən Erkan Özoral Azərbaycanda çox tarixi bir dövrdə səfir kimi fəaliyyət göstərməsindən böyük şərəf duyduğunu qeyd edib. Türkiyə ilə Azərbaycan arasında strateji münasibətlərin möhkəm əsaslara malik olduğunu vurğulayan səfir bu əlaqələrin gələcəkdə də inkişaf edəcəyinə əminliyini ifadə edib. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Əlcəzairli hüquqşünas: Ermənistanın minaladığı ərazilərin xəritələrini gizlətməsi cinayətdir



“Əl Əxbariyə” nəşrində Əlcəzair Universitetinin Beynəlxalq hüquq fakültəsinin professoru, politoloq Yusif Xorinin “Ölüm maşınını dayandırın!” sərlövhəli məqaləsi dərc edilib. Məqalədə Ermənistanın minalanmış ərazilərin xəritələrini verməkdən imtina etməsindən bəhs olunur. AZƏRTAC xəbər verir ki, yazıda piyada əleyhinə minaların daha çox mülki şəxsin həlak olmasına gətirib çıxardığı qeyd edilir və ermənilərin bu addımı beynəlxalq cinayət kimi qiymətləndirilir.

“Beynəlxalq hüququn normalarına görə, insanları təhlükədən xilas etmək üçün minalanmış ərazilərin xəritələrinin təcavüzə məruz qalmış dövlətə təqdim olunması üzrə əməkdaşlıq öhdəlik kimi qiymətləndirilir. Ermənistan ötən ilin noyabrında imzaladığı kapitulyasiya sənədindən sonra bu addımı atmağa borclu idi”, - deyə əlcəzairli professor vurğulayıb.

Müəllif qeyd edib ki, atəşkəs haqqında razılaşmanın imzalanmasından sonra təxminən 10 min kvadratkilometr ərazidə mina təhlükəsi yaranıb və baş verən partlayışlar nəticəsində 20-dən çox azərbaycanlı həlak olub, 100-ə yaxın insan yaralanıb. Onların əksəriyyəti mülki şəxslər, o cümlədən qadın və uşaqlardır. Professor yazıb: “Biz təhlükəyə məruz qalan azərbaycanlı qardaşlarımızı dəstəkləyirik. Bu kontekstdə bütün dünya ictimaiyyətini, qeyri-hökumət təşkilatlarını, hüquq müdafiəçilərini ermənilərin səbəb olduqları ölüm maşınını dayandırmağa, günahsız dinc sakinlərin həyatını xilas etmək üçün Ermənistana təzyiqi artırmağa çağırıram. Ümidvaram ki, bu cür müraciətlər Ermənistanı haqqın səsinə qulaq asmağa və humanitar prinsiplərə əməl etməyə vadar edəcək. Minalanmış ərazilərin xəritələrinin verilməsi dinc azərbaycanlıların yaşamaq hüququnun təminatıdır”.

# Cibutili diplomat: Ağdama səfərimiz zamanı bu şəhərin tamamilə dağıdıldığını gördük

**Ağdama səfərimiz zamanı şəhərin tamamilə dağıdıldığının şahidi olduq. Gəncədə isə müxtəlif raket atəşləri nəticəsində şəhərə dəymiş ziyanı öz gözlərimizlə gördük. İƏT olaraq işğaldan azad edilmiş bölgələrdə normal həyatın bərpası üçün Azərbaycan dövlətinə dəstəyimizi davam etdirəcəyik.**




AZƏRTAC xəbər verir ki, bu sözləri işğaldan azad olunmuş bölgələrə səfərin yekunlarına dair keçirilən mətbuat konfransında Cibutinin Səudiyyə Ərəbistanındakı səfiri və İslam Əməkdaşlıq Təşkilatı (İƏT) yanında daimi nümayəndəsi Dya-Eddine Said Bamakhrama deyib.

O bildirib: “Bildiyimiz kimi, İslam sülh dinidir. Bu baxımdan, biz dünyada sülhün bərqərar olması üçün əlimizdən gələni əsirgəməməliyik. Biz dünyada sülhün, barışın tərəfdarı olduğumuzu bir daha bəyan edirik”.

# YAP Gənclər Birliyinin təqdimatı keçirilib

***Aprelin 8-də Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin təşkilatçılığı ilə "Azərbaycan gənclərinin beynəlxalq arenada təmsilçiliyi" mövzusunda Milli Məclisin deputatı, YAP İdarə Heyətinin üzvü Ramin Məmmədovla görüşü keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbiri giriş söz ilə açan YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov Azərbaycanda dövlət gənclər siyasətinin uğurlarından danışıb, gənclərin beynəlxalq təmsilçiliyindən bəhs edib. B.İslamov mövzunun aktuallığını qeyd edərək, Ramin Məmmədovun fəaliyyəti haqqında da görüş iştirakçılarına məlumat verib.***

Görüşdə çıxış edən Milli Məclisin deputatı, YAP İdarə Heyətinin üzvü Ramin Məmmədov bildirib ki, Ulu öndər Heydər Əliyevin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyası bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük uğurlar qazanır. Onun sözlərinə görə, YAP Gənclər Birliyi də ötən dövrdə inkişaf edərək sıralarını genişləndirib.

R.Məmmədov qeyd edib ki, Azərbaycan gəncləri müstəqil dövlətimizi beynəlxalq müstəvidə uğurla təmsil edir: "Bilirsiniz ki, ötən dövr ərzində xarici siyasətimizin əsasını Dağlıq Qarabağ probleminin həlli təşkil edirdi. Ermənistanın qeyri-konstruktiv mövqeyi münaqişənin sülh yolu ilə həllinə imkan vermirdi. 44 günlük Vətən müharibəsi nəticəsində Ali Baş Komandanımızın rəhbərliyi ilə işğal altında olan torpaqlarımız azad olundu. Son 17 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə ardıcıl şəkildə həyata keçirilən məqsədyönlü siyasət sayəsində Qarabağ münaqişəsinin ədalətli həlli üçün əlverişli hüquqi baza formalaşmış, vacib beynəlxalq sənədlər qəbul olunmuşdu. Təbii ki, bu məsələdə dövlətimizin başçısının bütün beynəlxalq platformalarda Ermənistanın işğalçılıq siyasətini, Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin tarixi faktlara və beynəlxalq hüquqa əsaslanan prinsipial mövqeyini dünya ictimaiyyətinin diqqətinə çatdırması mühüm rol oynayıb. Eyni zamanda, Azərbaycan gəncləri də beynəlxalq platformalarda Ermənistanın işğalçılıq siyasətinin ifşa olunması istiqamətində səmərəli fəaliyyət göstərib. Bu baxımdan, YAP Gənclər Birliyinin üzvlərinin fəaliyyəti də təqdirəlayiqdir".







Millət vəkili söyləyib ki, bu gün ölkəmizdə gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşayır. Prezident İlham Əliyev fəaliyyətində gəncliyin inkişafına xüsusi diqqət yetirir. Məhz bu siyasətin nəticəsidir ki, Azərbaycan gəncləri dövlətimizi beynəlxalq müstəvidə də layiqli təmsil edirlər.

R.Məmmədov, həmçinin YAP Gənclər Birliyinin ötən dövr ərzində beynəlxalq əlaqələrindən danışıb, bu əlaqələrlə bağlı məlumatları slaydlarla təqdim edib. Bildirilib ki, YAP Gənclər Birliyi İCAPP Gənclər Qolunun təsis olunmasında fəal iştirak edib və hazırda YAP-ın nümayəndəsi təşkilatın həmsədrlərindən biridir. Eləcə də, YAP Gənclər Birliyi Avropanın nüfuzlu DEMYC gənclər təşkilatının tam hüquqlu üzvüdür. Bundan əlavə, YAP Gənclər Birliyi bir sıra beynəlxalq təşkilatlar və ayrı-ayrı ölkələrin siyasi partiyalarının gəncləri ilə fəal əməkdaşlıq edib. Millət vəkili, fəal beynəlxalq əlaqələrin Azərbaycanın dünyada tanıdılması işində vacib rolunu vurğulayıb.

R.Məmmədov əmin olduğunu bildirib ki, YAP Gənclər Birliyinin yeni heyəti də ölkəmizi və partiyamızı beynəlxalq müstəvidə uğurla təmsil edəcək. O, bu yolda YAP Gənclər Birliyinə uğurlar arzulayıb.

Daha sonra Ramin Məmmədov YAP Gənclər Birliyinin üzvlərinin suallarını cavablandırıb, görüş diskussiya şəraitində davam edib.

***Ceyhun Rasimoğlu***

# Amnesty International: "Ermənistanda ifadə, dinc toplaşmaq azadlığı məhdudlaşıb"

**Beynəlxalq qeyri-hökumət təşkilatı olan Amnesty International, 2020-2021 hesabatını çərşənbə günü açıqlayıb. SİA xəbər verir ki, hesabatda ayrı bir fəsil Ermənistana həsr edilmişdir ki, bu barədə Ermənistana məxsus armenianreport.com saytı da məlumat yayıb.**

Hesabatda qeyd olunur ki, Azərbaycanla hərbi konfliktdən sonra və hərbi vəziyyət rejiminin tətbiqi ilə əlaqədar Ermənistan vətəndaşları çaşqınlıq içərisindədir və insanların hakimiyyət əleyhinə etirazlar etməsi istəyi fonunda ölkədə ifadə azadlığı, toplaşmaq imkanları məhdudlaşdırılıb. Bildirilir ki, Ermənistanın məğlubiyyəti ölkədə siyasi qarışıqlığa səbəb olub, baş nazirin istefası çağırışları edilir və bu da ölkəni siyasi böhrana sürükləyib. Həmçinin nəzərə çatdırılır ki, 12 müxalifət nümayəndəsi, baş nazir iqamətgahının dağıldığı və qəzəbli kütlə tərəfindən ağır döyülmədən sonra parlamentin sədrinin xəstəxanaya qaldırıldığı iğtişaşlarda iştirak etdiklərinə görə həbs edilib.

Sözügedən hesabatda vurğulanır ki, vəd edilmiş məhkəmə və korrupsiyaya qarşı mübarizə islahatları qismən parçalanmış təbiətləri və institusional dəyişikliklər gətirməməsi səbəbindən ləngiyib. İslahatların həm də iqtisadiyyata və səhiyyə sisteminə dağıdıcı təsir göstərən münaqişə və pandemiyadan təsirləndiyi də diqqətə çatdırılır.

Xəstəxanaların və səhiyyə sektorunun sıxıldığı qeyd olunur hesabatda. Pandemiya və döyüşlər zamanı artan xəstələrin tibbi yardımının öhdəsindən gəlmək üçün mübarizə aparılmadığı, dövlət işini itirənlərə və azyaşlı uşaqları olan ailələrə məhdud maddi yardım göstərildiyi də hesabatda öz əksini tapır.




Təsdiqlənmiş məlumatlara görə, Ermənistan beynəlxalq humanitar qanunlar tərəfindən qadağan edilmiş silahlardan istifadə edib. Bildirilir ki, 28 oktyabr tarixində Azərbaycan hökumətinin nəzarətində olan əraziyə, Bərdə şəhərinə qadağan olunmuş silahlardan, mülki, dinc əhaliyə qarşı istifadə edilib və insanların ölümünə, yaralanmasına, mülklərinin dağıdılmasına səbəb olub.

Hesabatda Ermənistanda ifadə azadlığı və dinc toplaşma hüquqlarının məhdudlaşdırıldığı xüsusilə vurğulanır. Fövqəladə vəziyyətin, əvvəlcə COVID19 pandemiyası səbəbindən mart-sentyabr ayları arasında, daha sonra hərbi vəziyyətlə əlaqədar ilin sonuna qədər davam etdirildiyi qeyd olunur. Fövqəladə vəziyyətin bir hissəsi olaraq, digərləri arasında, 20-dən çox insanın kütləvi toplantısına və pandemiya ilə bağlı "qeyri-rəsmi məlumat" dərc edilməsinə rəsmi bir qadağa da var ölkədə, hansıki, bu da hesabatda yer alır. Aprel ayında yerli və beynəlxalq insan haqları təşkilatlarının sərt tənqidləri, media məhdudiyyətləri barədə də qeyd olunur.

Qeyd olunur ki, hərbi vəziyyət ifadə və sərbəst toplaşmaq azadlığına yeni məhdudiyyətlər gətirib. Parlament 9 oktyabr tarixində münaqişə və milli təhlükəsizlik məsələləri ilə bağlı "qeyri-rəsmi məlumatların" yayılmasını qadağan edən bir qanun layihəsini, habelə hərbi əməliyyatlara və hökumət rəsmilərinin açıqlamalarına dair hər hansı bir ictimai tənqidi məhdudlaşdıran qaydaları təsdiqləyib. Ermənistanda baş nazirin istefasını tələb edən hökumət əleyhinə nümayişlərin qadağan edilməsi üçün atəşkəsin ardından noyabr ayında dinc toplaşmaq azadlığına hərbi vəziyyət məhdudiyyətləri tətbiq edilib ki, bu da hesabatda diqqətdən yayınmayıb.

Hesabatda həmçinin nəzərə çatdırılır ki, Ermənistan aprel ayında hökumət "ətraf mühitə mənfi təsir göstərə biləcək" məlumatların açıqlanmaması üçün qanunvericiliyə dəyişiklik təklif edib. Ekoloji qeyri-hökumət təşkilatları, Ermənistan hökumətinin hasilat sənayesinin maraqlarını yerli əhalinin maraqlarından üstün tutaraq ətraf mühitin şəffaflığını azaltmağa çalışdığından narahat olduqlarını bildirdilər ki, beynəlxalq hesabatda buna da diqqət ayrılıb. Qeyd olunub ki, bu, Ermənistanın cənubundakı Amulsar qızıl yatağı ətrafında həll olunmamış ziddiyyətlər fonunda baş verib. Məlumdur ki, 2018-ci ildən bəri yerli sakinlər Amulsar yatağının ətraf mühitə və gəlir mənbələrinə yaratdığı təhdidlərə etiraz edirlər, amma Ermənistan hakimiyyəti bunu əngəlləyir və görünür bu faktlar da 2020-2021 hesabatında nəzərdən qaçmayıb və yüzlərlə fəalın toplandığı etiraz aksiyasına işğalçı ölkə səlahiyyətlilərinin məhəl qoymaması da hesabatda yer alır, neqativ hal olaraq vurğulanır. Amulsar mədənində, şirkət tərəfindən işə götürülən yeni bir mühafizəçinin mədənə gedən yolu bağlayan yerli sakinləri qovması, 5 avqust tarixində mədənin mühafizəçiləri ilə toqquşmalardan sonra polisin 12 nəfəri saxlaması, paytaxt İrəvanda polisin ətraf mühitin qorunmasını dəstəkləyən fəalların mitinqini eyni vaxtda dağıtması, onlarla dinc nümayişçinin saxlanması faktları da hesabatda nəzərə alınıb və bütün bunlar ifadə azadlığının, sərbəst toplaşmaq azadlığının pozulması faktı kimi qeyd edilib.

Xatırladaq ki, beynəlxalq təşkilatlar son vaxtlar Ermənistan barədə, ölkə hakimiyyətinin insan haqlarını pozması barədə iradlar bildirir, narazılıqlarını gizlətmirlər. Baxmayaraq ki, hazırki hakimiyyət Ermənistanın demokratik bir ölkə imicini yaratmaq niyyətində olublar, artıq bu istək və niyyətləri barədə düşünməyə belə yer qalmayıb. Görünür, Amnesty International da bu məqamlara göz yuma bilməyib və hazırladığı hesabatda, tam olmasa da belə Ermənistanın eyiblərini aşkar şəkildə bildirib. Nəzərə çatdıraq ki, işğalçı ölkədə söz, ifadə, fikir və toplaşmaq azadlığı beynəlxalq hesabatda qeyd olunandan daha bərbad vəziyyətdədir və ölkə vətəndaşları güclü təzyiq, hətta təhdidlərlə üz-üzədir.

***İnam Hacıyev***



## Ermənistan ordusunun daha bir hərbçisi fərarilik edib

Ermənistan ordusunun hərbi qulluqçuları arasında son vaxtlar hərbi xidmətdən yayınma, xidmət yerini özbaşına tərk etmə və məzuniyyətdən gecikmə halları artmaqda davam edir. "İki sahil" erməni mediasına istinadla xəbər verir ki, Ermənistan silahlı qüvvələrinin hərbi hissələrindən birinin hərbi qulluqçusu xidmət yerindən qaçıb. Qafan ərazisindəki postdan fərarilik edən Orber Ayvazyanın tapılması və geri qaytarılması ilə bağlı komandanlıq tədbir görür.

# Ermənistanla dövlət sərhədində yeni hərbi hissə fəaliyyətə başlayıb

**Ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi və dövlət sərhədlərinin işğaldan azad olunmasından sonra Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq bu ərazilərdə sərhəd mühafizə bölmələrinin xidməti-döyüş fəaliyyətinin yüksək səviyyədə təşkili məqsədilə zəruri sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılması davam etdirilir.**

Dövlət Sərhəd Xidmətindən bildirilib ki, aprel ayının 8-də Zəngilan rayonu ərazisində Ermənistanla dövlət sərhədində yeni hərbi hissə - sərhəd komendantlığı xidməti-döyüş fəaliyyətinə başlayıb.



Bu münasibətlə təşkil olunmuş mərasimdə Dövlət Sərhəd Xidməti rəisinin müavini general-leytenant İsmayıl Əkbərov çıxış edib, Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyevin təbrikini şəxsi heyətə çatdırıb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Ali Baş Komandanlığı altında xidmət etməyin hər bir Azərbaycan sərhədçisi üçün böyük şərəf və qürur mənbəyi olması, bu ərazilərdə qısa müddət ərzində ardıcıl olaraq yeni hərbi hissələrin fəaliyyətə başlamasının, zəruri sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılmasının dövlət sərhədlərimizin etibarlı mühafizə altına götürülməsi prosesi çərçivəsində qarşıya qoyulmuş tapşırıqların uğurla icra edilməsi baxımından böyük əhəmiyyət kəsb etməsi xüsusi qeyd olunub.

Yeni hərbi hissənin açılışını bildirən rəmzi lent kəsildikdən sonra tədbir iştirakçıları sərhəd komendantlığının şəxsi heyətinin xidməti-döyüş fəaliyyətinin təşkili üçün yaradılmış şəraitlə tanış olmuş, o cümlədən xidməti otaqlara, kazarma və yeməkxanaya, hamamcamaşırxanaya, anbar, silah və texniki vasitələrə, avtomobil texnikasına baxış keçirmişlər. Tədbirin sonunda xidməti fəaliyyətində fərqlənmiş hərbi qulluqçular təltif olunmuşlar.

# Səfir: Azərbaycan yüksək səviyyəli tolerantlıq mühiti ilə seçilir

***Aprelin 8-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özoralla diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar görüşüb.***



Komitənin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə M.Qurbanlı xalqlarımız arasındakı tarixboyu formalaşmış, ulu öndər Heydər Əliyevin söylədiyi “Bir millət, iki dövlət” çağırışını özündə ehtiva edən qardaşlıq və dostluq münasibətlərinə diqqət çəkərək, Türkiyənin Vətən müharibəsi dövründə bütün səviyyələrdə Azərbaycanın haqq savaşını dəstəkləməsinin növbəti həmrəylik nümunəsi olduğunu, bu dəstəyin hər bir Azərbaycan vətəndaşına fəxarət hissi yaşatdığını bildirib.

Qardaş ölkələrin dini-mənəvi sahədə əməkdaşlığının önəminə toxunan Mübariz Qurbanlı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə Türkiyənin Diyanət İşləri Başqanlığı arasında əlaqələrin daha da dərinləşdiyini qeyd edib. Bu əlaqələrin inkişafında Türkiyənin ölkəmizdəki səfirliyinin, o cümlədən Din İşləri üzrə Müşavirliyin böyük xidmətləri olduğunu diqqətə çatdırıb.

Səmimi qəbula görə təşəkkürünü bildirən səfir Erkan Özoral fəaliyyətinin Azərbaycanın tarixi Zəfər qazandığı bir vaxta təsadüf etməsindən qürur hissi keçirdiyini vurğulayıb. E.Özoral ölkəmizi öz Vətənindən ayırmadığını bildirərək, Azərbaycan ilə Türkiyə arasındakı münasibətlərin yaxınlığı və inkişafı baxımından dünyada oxşar vəziyyətin müşahidə edilmədiyini bildirib. Azərbaycanın yüksək səviyyəli tolerantlıq mühiti ilə seçildiyini söyləyən səfir Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin din sahəsində həyata keçirdiyi uğurlu siyasəti, dinlərarası və mədəniyyətlərarası dialoq işinə bəxş etdiyi töhfələri yüksək qiymətləndirib.

DQİDK sədri ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, həmçinin din sahəsində daha da genişləndirilməsi işinə verdiyi töhfəni xüsusi vurğulayaraq, səfirə gələcək fəaliyyətində uğurlar arzulayıb.

# Haber Global: “İskəndər M” raketi asan şəkildə terrorçuların əlinə düşə bilər”

**Türkiyənin Haber Global telekanalı “İskəndər M” raket kompleksinin 44 günlük Vətən müharibəsində istifadə edilməsi ilə bağlı süjet hazırlayıb. Materialda bildirilir ki, Azərbaycanın ANAMA minatəmizləmə agentliyi bu yaxınlarda Şuşada “İskəndər M” raketinin qalıqlarını aşkar edib.**

“Ermənistan ixracı qadağan olunmuş bu silahı necə əldə edib? Bir neçə gün əvvəl ANAMA raketin qalıqlarını bütün dünyaya nümayiş etdirdi. Orada 9M723 seriya nömrəsi yaxşı görünür. Yəni Şuşa istiqamətində atılan raket “İskəndər M”dir, “İskəndər E” deyil”, Haber Global materialında bildirir.

**“Beynəlxalq konvensiyalara uyğun olaraq 300 km radiusunda hədəfləri məhv edən bu raketlərin ixracı qadağan edilib”**



Telekanal daha bir məsələni açıqlayaraq qeyd edir ki, Rusiya Ermənistana qadağan olunmuş raketləri ötürübsə, deməli ki, beynəlxalq konvensiyaları kobud şəkildə pozub və Şuşada aşkar edilən qalıqlar da həmin məsələni kifayət qədər ehtiva etməkdədir. “Bu, çox vacib detaldır, çünki “İskəndər M” yalnız Rusiya üçün istehsal edilir və onun ixracı qadağandır”, deyə hazırlanan süjetdə vurğulanır və xatırladılır ki, beynəlxalq konvensiyalara uyğun olaraq 300 km radiusunda hədəfləri məhv edən bu raketlərin ixracı qadağan edilib.

Bundan əlavə, onlar 500 və daha artıq km məsafədəki hədəfləri də məhv etmək qabiliyyətinə malikdirlər. Eyni zamanda, xatırlanır ki, 2016-cı ildə Ermənistana “İskəndər-E” tipli raketlər verilib”, adıçəkilən türk TV-si qeyd edir.

**“Bütün dünya təhlükə altında qala bilər”**

“Lakin necə alına bilər ki, Şuşa şəhərinin ərazisində məhz “İskəndər M” raketlərinin qalıqları müəyyən edilib? Azərbaycanın ərazisinə onları kim və haradan atıb? Hələ ki, Rusiya tərəfindən bu suala dəqiq cavab yoxdur. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov qeyd edib ki, bu barədə məlumatlı deyil. Onun sözlərinə görə, mövcud sistemlər Qarabağda istifadə edilməyib. Əgər Rusiya Ermənistana “İskəndər M” raketlərini verməyibsə, bu zaman raketlər necə onların əllərinə keçiblər? Yoxsa onlar Ermənistana qeyri-qanuni yollarla çatdırılıb? Əgər bu həqiqətən də belədirsə, bu zaman bütün dünya təhlükə altında qala bilər. Ona görə ki, bu silah terrorçuların əlinə asan şəkildə düşə bilər” adıçəkilən kanalın süjetində vurğulanır.

*Rövşən RƏSULOV*

## Baş epidemioloqdan çağırış: Piyada gəzin



Gürcüstanın İctimai Səhiyyə və Xəstəliklərə Nəzarət Milli Mərkəzinin rəhbəri, baş epidemioloq Amiran Qamkrelidze koronavirusa yoluxmanın artması fonunda vətəndaşlara piyada gəzməyi məsləhət görüb. “İki sahil” gürcü mediasına istinadən xəbər verir ki, Qamkrelidze yaz fəsli olduğu üçün insanların daha çox piyada yol qət etmələri fikrindədir: “Yalnız nəzarət və sərt qaydalar işləmir. Başlıcası nizam-intizam və anlayış göstərməkdir. İndi yazdır. Piyada daha çox gəzin. İki dayanacaqdan ötrü avtobusa minmək lazım deyil. Hər gün 2-3 kilometr gəzmək pis olmaz”. Baş epidemioloq əlavə edib ki, ölkədə üçüncü dalğa təhlükəsi olduğundan insanlar sosial tədbirlərdən çəkinməlidirlər.

## Çavuşoğlu: Cənubi Qafqaz sülh və sabitlik bölgəsi ola bilər



Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Küveytdən olan həmkarı Əhməd Nasser əl- Mohammed əl-Sabahla Qarabağ məsələsi və Qafqaz bölgəsindəki vəziyyəti müzakirə edib. Bu barədə Çavuşoğlu görüşdən sonra keçirilən birgə mətbuat konfransında deyib.

XİN başçısı bildirib ki, Qarabağda əldə edilmiş atəşkəs bölgədə önəmli layihələrin həyata keçirilməsində yeni fürsətdir. “Əgər Ermənistan bu fürsəti qiymətləndirsə, Cənubi Qafqaz gələcəkdə sülh, sabitlik bölgəsi ola bilər”, -deyə Çavuşoğlu vurğulayıb.

## Rusiya Azərbaycanın daha 7 müəssisəsindən pomidor idxalına icazə verib

Rusiya Federasiyasının Baytarlıq və Fitosanitar Nəzarət üzrə Federal Xidməti (“Rosselxoznadzor”) Azərbaycanın daha 7 müəssisəsindən pomidor idxalına icazə verib. AZƏRTAC xəbər verir ki, məhsullar aprelin 9-dan Rusiyaya idxal edilməyə başlanacaq. Qərar Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi ilə birlikdə aparılan yoxlamaların nəticələrinə əsasən verilib.

Xatırladaq ki, Azərbaycandan Rusiyaya pomidor və alma idxalına ötən il dekabrın 10-dan qadağa qoyulmuşdu. Qadağaya səbəb isə məhsullarda zərərvericilərin aşkar olunması idi. Azərbaycan Rusiyanın ən böyük pomidor ixracatçısıdır. Ölkəyə gətirilən pomidorun 40 faizi Azərbaycanın payına düşür.

## Azərbaycanda 2 717 nəfər COVID-19-a yoluxub, 31 nəfər vəfat edib




Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 2 717 yeni yoluxma faktı qeydə alınıb, 1 341 nəfər müalicə olunaraq sağalıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan SİA-ya verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 31 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 279 181 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 245 881 nəfər müalicə olunaraq sağalıb, 3 811 nəfər vəfat edib, aktiv xəstə sayı 29 489 nəfərdir. Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 14 581, ötən müddət ərzində isə ümumilikdə 2 977 593 test aparılıb.

# Ümumdünya Səhiyyə Təşkilatı İlham Əliyevin liderliyini alqışlayır

*Bu, Azərbaycan Prezidenti İlham Əliyev diplomatiyasının düşünülmüş və proqmatik xarici siyasətinin reallığıdır*

**Bu, bir həqiqətdir ki, koronavirus pandemiyası başlanandan etibarən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti tərəfindən çox ciddi tədbirlər görülməklə yanaşı, regional və qlobal səviyyədə mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə zəruri təşəbbüslər irəli sürülür və əməli addımlar atılır. Ümumiyyətlə, pandemiyanın yayılmağa başladığı dövrdən Azərbaycan rəhbərliyi çevik qərarlarla, bu bəlanın törədə biləcəyi faciənin miqyası dəqiq təhlil edilməklə mübarizə tədbirlərinə başlayıb. Ölkənin səhiyyə sistemi qısa zamanda virusla mübarizəyə istiqamətləndirilib, xüsusi karantin rejimi tətbiq olunub, modul tipli xəstəxanalar inşa edilib, maska istehsalı fabriki açılıb, 20-dən çox müasir laboratoriya quraşdırılıb. Ölkəmizdə həm də yoluxmanın erkən aşkarlanması üçün xeyli sayda testlərin aparılması, koronavirusa yoluxmuş bütün xəstələrin xəstəxana şəraitində yüksək səviyyədə müalicə edilməsi də bu prosesin tərkib hissəsidir.**

Bundan başqa, xüsusi karantin rejiminin tətbiq olunduğu zaman dövlət hər bir vətəndaşının yanında olub, onların problemlərinin həllinə dəstək göstərib, maddi yardım edib. İqtisadi sabitliyi, məşğulluqla bağlı problemləri həll etmək üçün sosial-iqtisadi dəstək paketi qəbul olunub. Ən nəhayət, vaksinasiya prosesinə başlanılıb. Bütün bu proseslər isə vətəndaş sağlamlığının qorunması faktorunun dövlət üçün prioritet olduğunu göstərdi və Prezident İlham Əliyevin birbaşa nəzarəti, təşəbbüskarlığı ilə pandemiyaya qarşı mübarizə tədbirləri, atılan ümumi addımlar həm də növbəti Azərbaycan təcrübəsini yaratdı.

Azərbaycan Prezidenti çıxışlarında, nitqlərində vurğulayır ki, pandemiyadan çıxış yolu yalnız qlobal həmrəylikdən, dünya dövlətlərinin ümumi səylərini birləşdirməsindən asılıdır. Təsadüfi deyil ki, pandemiyaya qarşı mübarizədə ölkələrin birgə fəaliyyəti, çoxtərəfli əməkdaşlıq təklifini də məhz İlham Əliyev irəli sürmüşdü. Prezidentin BMT Baş Assambleyasının xüsusi sessiyasının çağırılması təşəbbüsünün dünyanın 130-dan çox ölkəsi tərəfindən dəstəklənməsi də bunun bariz nümunəsidir.






Ötən ilin dekabrında BMT Baş Assambleyasının COVID-19 pandemiyasına həsr olunan xüsusi sessiyasında İlham Əliyev Qoşulmama Hərəkatının sədri kimi çıxış edərək bütün ölkələri bu mübarizədə həmrəyliyə çağırdı, birtərəfli addımlar atılmamasının, peyvəndin bütün ölkələrin xalqları üçün əlçatan olmasının vacibliyini önə çəkdi. Prezident İlham Əliyevin təşəbbüsü ilə bu problemin aradan qaldırılması istiqamətində daha bir uğurlu addım bu ilin mart ayında atıldı. BMT-nin İnsan Hüquqları Şurasının 46-cı sessiyası çərçivəsində Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın təşəbbüsü ilə "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə qəbul edildi. Bununla da Azərbaycan növbəti dəfə qlobal həmrəyliyə öz töhfəsini verdi. Ölkə rəhbəri İlham Əliyevin digər dövlətlər tərəfindən qəbul edilərək yüksək qiymətləndirilən daha bir təşəbbüsü vaksinlərin ədalətsiz və qeyri-bərabər paylanmasının aradan qaldırılması ilə bağlı oldu.

Prezident İlham Əliyev Azərbaycanda əhalinin sağlamlığının qorunması və koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında fərman imzalayıb. Sərəncamda qeyd olunur ki, ölkəmizdə koronavirus infeksiyasına qarşı preventiv addımlar atılması və mübarizə tədbirlərinin gücləndirilməsi məqsədilə Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılır. "Koronavirusla Mübarizəyə Dəstək Fondunun vəsaitinin formalaşdırılması, idarə olunması və ondan istifadə Qaydası" təsdiq edilir.

Müəyyən edilir ki, Koronavirusla Mübarizəyə Dəstək Fondunun məqsədi koronavirus infeksiyasının Azərbaycanda yayılmasının qarşısını almaqdan və onunla mübarizə istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyini təmin etməkdən ibarətdir.

Dövlət başçısının müvafiq sərəncamı ilə koronavirus infeksiyasının yayılmasının qarşısının alınması və onunla mübarizə istiqamətində səhiyyə tədbirlərinin həyata keçirilməsi məqsədilə 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Prezidentinin ehtiyat fondundan Koronavirusla Mübarizəyə Dəstək Fonduna ilkin olaraq 20 milyon manat ayrılır.

## Ölkəmizin ÜST-ə siyasi və mənəvi dəstəyi çox dəyərlidir

Bu gün də Ümumdünya Səhiyyə Təşkilatı İlham Əliyevin bu prosesdəki fəaliyyətini alqışlayır və koronavirusa qarşı mübarizədə Azərbaycan təcrübəsi dünya miqyasında ən mükəmməl modellərdən biri kimi qəbul olunur.

Aprelin 1-də ÜST-ün baş direktorunun təşəbbüsü ilə İlham Əliyevlə Tedros Adhanom Gebreyesusun videokonfrans formatında görüşü və aprelin 6-da bu təşkilatın İsveçrənin Cenevrə şəhərində yerləşən mənzil-qərargahında Ümumdünya Sağlamlıq Gününə həsr olunmuş tədbirində səslənən fikirlər də deyilənləri bir daha təsdiqlədi. Baş direktor Azərbaycanın təşkilata bütün sahələrdə, o cümlədən maliyyə sahəsində 10 milyon dollar dəyərində etdiyi yardımı yüksək qiymətləndirərək ölkəmizin ÜST-ə siyasi və mənəvi dəstəyinin çox dəyərli olduğunu qeyd etdi.

## Azərbaycanın göstərdiyi siyasi və mənəvi dəstək-reallıqlar

Prezident İlham Əliyev Ümumdünya Sağlamlıq Gününə həsr olunmuş tədbirdə videomüraciətdə pandemiya ilə mübarizə tədbirləri çərçivəsində görülən ümumi işlərlə bağlı reallıqları qiymətləndirdi. Öncə Azərbaycan səhiyyə sisteminin mövcud durumunu dəyərləndirən Prezident vurğuladı ki, hazırda ölkəmizin səhiyyə sistemində əhəmiyyətli dəyişikliklər baş verir. Azərbaycan icbari tibbi sığorta tətbiq etməklə ilkin tibbi yardımı gücləndirir, təcili tibbi yardım xidmətlərini yeniləyir, ölkədə elektron səhiyyə platforması və dövlət səhiyyə hesablarını istifadəyə verməklə rəqəmsallaşmanı təmin edir.

Azərbaycanın pandemiyaya qarşı qlobal səyləri səfərbər edən ilk dövlətlərdən biri olduğunu deyən Prezident ölkəmizin təşəbbüsü ilə reallaşan tədbirlərin əhəmiyyətini və respublikamızın beynəlxalq məsuliyyətinə sadiq olaraq ÜST-ə, eləcə də 30-dan çox ölkəyə könüllü humanitar və maliyyə yardımı göstərdiyini diqqətə çatdırdı.

Bir sözlə, səhiyyə sahəsində qazanılmış uğurlar və qarşıya yeni hədəflərin qoyulması imkanı son 17 il ərzində Azərbaycanın bütün bölgələrində 750-dən çox xəstəxananın yenidən tikilməsi, yaxud əsaslı təmir edilməsi ilə sıx bağlıdır.

## "Azərbaycanda səhiyyə sistemində əhəmiyyətli dəyişikliklər baş verir"

Bu barədə aprelin 6-da Ümumdünya Səhiyyə Təşkilatının İsveçrənin Cenevrə şəhərində yerləşən mənzil qərargahında təşkilatın Baş direktoru Tedros Adhanom Qebre-

# Ümumdünya Səhiyyə Təşkilatı İlham Əliyevin liderliyini alqışlayır

*Bu, Azərbaycan Prezidenti İlham Əliyev diplomatiyasının düşünülmüş və proqmatik xarici siyasətinin reallığıdır*





yesusun təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin videomüraciətində deyilir.

Prezident İlham Əliyev bildirib: “Biz 1950-ci ildən etibarən hər il aprelin 7-də Ümumdünya Sağlamlıq Gününü qeyd edirik. Lakin 2021-ci ildə sağlamlığın əhəmiyyəti daha da artmışdır. Müasir, davamlı, yüksəkkeyfiyyətli səhiyyə sisteminə sahib olmaq hər bir ölkə üçün prioritetdir. Hazırda Azərbaycanda səhiyyə sistemində əhəmiyyətli dəyişikliklər baş verir. Azərbaycan icbari tibbi sığorta tətbiq etməklə ilkin tibbi yardımı gücləndirir, təcili tibbi yardım xidmətlərini yeniləyir, ölkədə elektron səhiyyə platforması və dövlət səhiyyə hesablarını istifadəyə verməklə rəqəmsallaşmanı təmin edir”.

Prezidentin dediyi kimi, 17 il əvvəl səhiyyə sisteminin maddi-texniki bazasının yaradılması, müasirləşdirilməsi başlıca vəzifə idi. Dövlət başçısının hələ 2004-cü ildə dediyi “biz qara qızılı insan kapitalına çevirməliyik”məşhur kəlamının təsdiq sahələrindən biri də səhiyyə sistemidir. Səhiyyə sahəsində dövlət siyasətinin növbəti hədəfi səhiyyə sisteminin təkmilləşdirilməsi, müasirləşdirilməsi və tibbi xidmətin keyfiyyətinin artırılmasıdır.







## Azərbaycanın məsuliyyət modeli

Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə koronavirus pademiyasının geniş şəkildə insanlar arasında yayılmasının qarşısının alınması üçün vaxtında həyata keçirilən zəruri qabaqlayıcı tədbirlər bu sahədə də Azərbaycan modelini nümunə olaraq bir daha ortaya qoymuş oldu. Zamanında ölkədə xüsusi karantin rejiminin yaradılması, eləcə də qabaqlayıcı tədbirlərin görülməsi dünya ölkələrində olan faciəvi sonluqların ölkəmizdə yaşanmasının qarşısını aldı, pandemiyaya qədər dünyada qabaqcıl səhiyyə sisteminə malik olan ölkələr çətin durumda qaldı, tibbi ləvazimat, xəstəxanalarda yer çatışmazlığı, xəstələr arasında çoxsaylı ölüm halları fəlakət həddinə çatdı. Prezident İlham Əliyevin sərəncamı ilə ölkəmizdə koronavirusla mübarizə məqsədilə bir çox modul tipli xəstəxanalar inşa edildi ki, onların da istifadəyə verilməsi ölkə üzrə ümumilikdə xəstəxanalarda çarpayı ehtiyatını artırmağa əhəmiyyətli kömək oldu.

Təsadüfi deyil ki, dünyanın aparıcı dövlətləri və Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanın pandemiyaya qarşı apardığı mübarizəni təqdir edib. Bununla yanaşı Azərbaycan pandemiya ilə mübarizədə digər dünya ölkələrinə də öz köməyini əsirgəmədi. Pandemiya ilə mübarizə çərçivəsində məhz Azərbaycanın təşəbbüsü ilə müxtəlif səviyyəli beynəlxalq tədbirlər keçirilib. Ötən ilin dekabrında Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə BMT Baş Assambleyasının pandemiya ilə mübarizə mövzusunda dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyası keçirilib. Sessiyanın təşkili bir daha təsdiqlədi ki, Azərbaycan koronavirusla mübarizədə nəinki regionda, eləcə də dünyada öncül ölkələrdəndir.

Bir sözlə, bütün bunlar Prezident İlham Əliyevin dünya səviyyəli uzaqgörən, müdrik liderlik qabiliyyətinə malik olmasının bariz göstəricisidir.

Göründüyü kimi, Azərbaycan Prezidentinin qlobal liderlik missiyası beynəlxalq müstəvidə pandemiya ilə mübarizəyə birbaşa təkan verməyə istiqamətlənib. Bu missiya qlobal bəladan bütün ölkələrin minimum itkilərlə çıxması üçün dəqiq strategiya müəyyən edir. Ona görə də İlham Əliyevin bu istiqamətdə atdığı bütün addımlar, gördüyü işlər beynəlxalq səviyyədə təqdir olunur və Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən də nümunə kimi göstərilir.

**RƏFİQƏ KAMALQIZI**

# Balığı bu xəstəliklərə görə yemək çox vacibdir

**Bildiyimiz kimi, pandemiya dövründə sağlamlığımız üçün tərkibində vitaminlərlə zəngin olan qidalar qəbul etməliyik. Bu qidaların içərisində zəngin vitaminləri ilə seçilənlərdən biri də balıqdır.**

Balıq, zəngin vitamin tərkibinə və güclü qida dəyərinə görə həm uşaqların, həm də böyüklərin mütəmadi olaraq, istifadə etməsi lazım olan bir qidadır. SİA-nın verdiyi məlumata görə, balıq A və D vitaminləri, sink, fosfor, yod, maqnezium və selenyum daxil olmaqla yüksək keyfiyyətli vitamin və minerallara malikdir.

Balığın insan orqanizminə bir çox faydaları var. 10 əsas faydası bunlardır:

**1. İmmunitet sistemini qoruyur**

Mövsümdə istehlak edilən balıq, tərkibindəki yağ turşuları sayəsində immunitet sistemini gücləndirmək üçün son dərəcə lazımlı bir qidadır. Balıqların bədəni qrip və infeksiyalardan qorunduğu araşdırmalarla sübut edilib. Xüsusilə, mövsümündə həftədə iki dəfə mütəmadi olaraq balıq qəbul edilməlidir.



**2. Balıq Omeqa - 3 deposudur**

Digər heyvan mənşəli qidalardan fərqli olaraq, balıqlarda doymuş yağ əvəzinə doymamış yağ turşuları adlanan Omeqa-3 yağ turşuları var. Omeqa-3, bədənin istehsal etmədiyi və daha çox balıqda olan son dərəcə faydalı bir yağdır. Xüsusilə, somon, skumbriya, sardalya və ton balığı kimi soyuq su balıqları Omeqa-3 ilə zəngindir. Omeqa-3, ürək-damar sağlamlığını qorumaqla yanaşı, gözdəki sarı ləkə xəstəliyi riskini azaldır və qan şəkərinin tənzimlənməsinə kömək edir.

**3. Beynin inkişafı üçün faydalıdır**

Balıq yodla zəngin olan bir qida mənbəyidir və zəkanın inkişafında mühüm rol oynayır. Balıq yeyən uşaqlarda zəka səviyyəsinin və öyrənmə qabiliyyətlərinin artdığı müşahidə olunur. Körpələrdə və uşaqlarda zəkanın inkişafını dəstəkləyən balığın tərkibindəki "DHA", görmə qabiliyyətinin və nevroloji inkişafın sağlam inkişafında son dərəcə təsirli bir rol oynayır.

**4. Ürək sağlamlığını qoruyur**

Balıq qəlbin əsl dostudur. Balığın tərkibindəki Omeqa-3 yağ turşuları zərərli xolesterolu azaldaraq, yaxşı xolesterolu artırır. Qanda sərbəst yağları azaldır. Təzyiqi aşağı salmaqla, ürək çatışmazlığı, insult riskindən qoruyur və qan laxtalanmasının qarşısını alaraq, axıcılığı artırır.

**5. Sümükləri gücləndirir**

Balıq insan orqanizminə bir çox faydaları olmaqla bərabər, həmçinin sümükləri də gücləndirir. Xüsusilə, sümükləri ilə yeyilə bilən kiçik balıqlar kalsiumla zəngin olur və əsas da kiçik yaşda uşaqların qəbul etməsi tövsiyə olunur.

**6. Hüceyrələri düzəldir**

Zülallar orqanizm üçün çox vacib qida mənbəyidir. Balıq da daxil olmaqla, bəzi qidalar keyfiyyətli protein yağları yaradır. Zülal hüceyrələrin düzəldilməsində və yeni toxumaların yaranmasında mühüm rol oynayır. Bu səbəbdən zülal baxımından zəngin balıqlar istehlak edilməlidir.

**7. Sizi depressiyadan qoruyur**

Problemlər bəzən ağır iş tempində və gündəlik həyatın dinamikliyi ilə üst-üstə düşə bilər. Xüsusilə, şəxsiyyətə meylli olan şəxslərdə stres öz yerini depressiyaya buraxa bilər. Tədqiqatlar göstərir ki, yüksək miqdarda Omeqa-3 yağ turşuları olan balıq, xüsusən də qızıl balıq, skumbriya və ton balığı depressiyaya qarşı böyük fayda verir.

**8. Diabet riskini azaldır**

Omeqa-3 gənclərdə diabet riskini əhəmiyyətli dərəcədə azaldır. İnsulinin işini artırır və "Tip 2" diabetdən qoruyur. Bu səbəbdən şəkərli diabet xəstələri və diabet riski olanlar üçün çoxlu balıq istehlak etməsi faydalıdır.

**9. Yaddaş itirmə riskini azaldır**

Balıq yağı və Omeqa-3 yağ turşusunun faydalarından biri də insanlarda yaddaş itirmə riskini azaltmasıdır. İnsan ömrünün uzanması ilə getdikcə yaş xəstəliyi olaraq, görülən yaddaş itirməyə qarşı həftədə iki dəfə balıq yeməyin böyük əhəmiyyəti var. Qeyd edək ki, balığı sobada və ya buxarda bişirmək daha faydalıdır.

**10. Oynaq ağrısı üçün faydalıdır**

Omeqa-3 yağ turşuları toxuma zədələnməsinə səbəb olan mexanizmləri təkrar emal edərək, iltihab əleyhinə təsir göstərən ən güclü qidalanma komponentlərindən biridir. Balıq istehlakının, xüsusən də "Romatoid artrit" xəstələrində oynaq rematizminin azaldılmasında və mövcud ağrıların aradan qaldırılmasında əhəmiyyətli faydaları var.

*Arzu Qurbanzadə*

# İsraili ABŞ-dan incik salan nədir?

**ABŞ-ın eks-prezidenti Donald Trampın dayandırdığı Fələstinə yardımlar yeni ABŞ prezidenti Co Bayden tərəfindən bərpa edilib. SİA xəbər verir ki, mövcud qərardan sonra İsraildən ABŞ-a reaksiya gecikməyib. Rəsmi mənbələrin verdiyi açıqlamada, "Qərar bizi məyus etdi", - deyə qeyd edilib.**



İsrail Xarici İşlər Nazirliyi yardımı həyata keçirən BMT-nin Fələstinli Qaçqınlara Yardım və İşlər üzrə Yaxın Şərq Agentliyini (UNRWA) münaqişəni daha da qızışdırmaqda günahlandırıb. Digər tərəfdən, İsrailin BMT-dəki daimi nümayəndəsi Gilad Erdan ABŞ-ın Fələstinə dəstək qərarını "xəyal qırıqlığı" olaraq qiymətləndirib.

"ABŞ Dövlət Departamenti ilə apardığım danışıqlarda təxribatın dayandırılması və antisemitizm məzmununun tədris proqramından çıxarılması da daxil olmaqla UNRWA-nın yenidən maliyyə yardımını başlatmaq qərarından məyus olduğumu və bunu rədd etdiyimi bildirdim", - deyə Gilad Erdandiqqətə çatdırıb. Qeyd edək ki, ABŞ Dövlət katibi Antoni Blinken ABŞ-ın BMT-nin Fələstinli Qaçqınlara Yardım və İşlər üzrə Yaxın Şərq Agentliyinə (UNRWA) 150 milyon dollardan çox yardım edəcəyini açıqlayıb.

# Ağacların qanunsuz kəsilməsi ilə bağlı cinayət işi açılıb



Qanunazidd əməlləri ilə ölkəmizdə keçirilən ekoloji sağlamlığın yaxşılaşdırılmasına və ətraf mühitin mühafizəsinə yönələn genişmiqyaslı tədbirlərə kölgə salan şəxslərə qarşı ardıcıl və təxirəsalınmaz mübarizə tədbirləri davam etdirilir. Belə ki, Nərimanov rayonu, Ceyhun Hacıbəyli küçəsi 2 ünvanında hündürmərtəbəli yaşayış binalarının inşası zamanı orada olan ağacların qanunsuz kəsilməsi ilə bağlı daxil olmuş material üzrə Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsində araşdırma aparılmışdır.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, aparılmış araşdırmalarla, "Olympus" MMC və "N-Turan" MMC-nin vəzifəli şəxslərinin qulluq mövqeyindən və vəzifə səlahiyyətlərindən sui-istifadə edərək, yaşayış binalarının tikintisi üçün əlverişli şərait yaratmaq məqsədilə qeyd edilən ünvanda yerləşən torpaq sahəsində mövcud olmuş, meşə fonduna daxil olmayan ağacların qanunsuz kəsilməsinə göstəriş vermələri nəticəsində dövlətin qanunla qorunan mənafelərinə ümumilikdə 27 min manat məbləğində ziyan vurmalarına əsaslı şübhələr müəyyən edilmişdir.

Faktla bağlı Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən Cinayət Məcəlləsinin 259.2.4-cü (qanunsuz ağac kəsmə külli miqdarda ziyan vurmaqla törədildikdə) və 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanaraq ibtidai istintaqın aparılması Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə həvalə edilib. Hazırda cinayət işi üzrə zəruri istintaq hərəkətləri davam etdirilir.

# YAP Qaradağ rayon təşkilatının nümayəndələri şəhid ailələri ilə görüşüb



YAP Qaradağ rayon təşkilatının nümayəndələri şəhid ailələrini və Vətən Müharibəsinin qazilərini mütəmadi ziyarət edir. Partiya fəalları Qızıldaş qəsəbəsi, Şonqar yaşayış massivində Vətən müharibəsinin ilk günündən ağır döyüşlərdə iştirak etməklə şəhidlik zirvəsinə yüksələn Ağamirzə Gülmalıyevin doğum günü ilə bağlı məzarını ailə üzvləri ilə birlikdə ziyarət ediblər.

YAP rayon təşkilatının sədri, Milli Məclisin deputatı Aydın Hüseynov bildirib ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu tarixi Qələbəyə imza atmaqla yalnız işğal altındakı torpaqlarımızı azad etmədi, həmçinin regionu, dünyanı terror və faşizm təhlükəsindən xilas etdi: "Zəfər qələbəsinin qazanılmasında Sizin oğullarınızın və onların cəbhə yoldaşlarının böyük xidmətləri xalqımız tərəfindən dain yüksək qiymətləndiriləcək. Məhz onların qəhrəmanılığı nəticəsində torpaqlarımız Ermənistanın işğalından azad olunub, xalqımızın 30 illik həsrətinə son qoyulub. Qeyd olundu ki, Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən hamımızın qəhrəmanına çevrilən Ağamirzə Gülmalıyevin "Vətən Uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilməsi hər birimizi qürurlandırır".

Sonra Qızıldaş qəsəbəsində şəhidlərin məzarları ziyarət olunub. Millət vəkili şəhid ailələri ilə keçirilən görüşdə onların qayğı və problemləri ilə maraqlanıb.

Deputat Aydın Hüseynov şəhid ailələrinin və qazilərin daim dövlətin qayğısı ilə əhatə olunduqlarını, cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın qazilərimizin müalicəsini diqqətdə saxladıqlarını, onların problemlərinin həlli üçün bütün zəruri addımların atıldığını bildirib. Şəhid ailələri göstərilən diqqət və qayğıya görə, Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlıqlarını və təşəkkürlərini vurğulayıblar.

*Rəfiqə*

# "İrəvandakı aksiyada tutulan qadınlar: "Polis güc tətbiq etdi"



Çərşənbə günü Ermənistan hökumətinin qarşısındakı etiraz aksiyası zamanı tutulan qadınlar, polis əməkdaşlarının onlara nisbətsiz güc tətbiq etdiklərini bildiriblər. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə Ermənistan Ombudsmanı Aparatının mesajında deyilir.

Qeyd edək ki, polisin ictimaiyyətlə əlaqələr və məlumat şöbəsinin rəis müavini Edqar Janoyanın daha əvvəl "Novosti-Armenia"-ya bildirdiyinə görə, hökumət binası yaxınlığında həm qadın, həm də kişi olmaqla 15 etirazçı polis idarəsinə gətirilib. Hökumət binası qarşısındakı aksiya zamanı tutulmalarla bağlı mətbuatda yayımlandıqdan sonra ombudsmanın müdaxilə qrupları polis şöbələrini ziyarətə götürüblər, həbs olunanlarla və bəzilərinin vəkilləri ilə söhbət ediblər.

"İnzibati nəzarətə alınan bütün qadınlar qeyd etdilər ki, gətirilməyə məruz qaldıqda, polis onlara qarşı heç bir tələb irəli sürməyib, gətirilmələrinin səbəblərini göstərməyiblər", deyə mesajda qeyd olunur.

Məlumata görə, vətəndaşlar ombudsmanın nümayəndələri ilə görüş zamanı bildiriblər ki, polisin hərəkətləri onlara qarşı güc tətbiq edilməsi halıdır.

Xatırladaq ki, Analıq və Gözəllik Günü kimi qeyd olunan 7 aprel tarixində, yəni dünən Ermənistan rəhbərliyinə qarşı etiraz aksiyası "VETO" ictimai-siyasi hərəkatının üzvləri olan erməni qadınlar tərəfindən təşkil edilib. Aksiya Aznavour meydanından yürüşlə başlayıb, bundan sonra iştirakçılar şəhərin mərkəzindəki hökumət binasına çatıblar. Hökumət binası qarşısında vəziyyət daha da pisləşib, qadınlar onlara binaya girmə imkanı verməyə çağırışı etdikdən sonra, polisin müdafiə səddini qırmağa, hökumət binasına girməyə çalışıblar, lakin müqavimətlə qarşılaşıblar. Bunun ardınca etirazçılar hökumət binasına yumurta atmağa başlayıblar. Polis də öz növbəsində etirazçıları tabe etməyə çalışıb və bu zaman güc tətbiqi faktı qeydə alınıb.

*İnam Hacıyev*

# Erməni vandalizmi: azərbaycanlılara qarşı ermənilərin cinayəti

## Prezident İlham Əliyev: "Onlar üçün nə əxlaq normaları var, nə şərəf, nə ləyaqət"

"Baxın, görün, biz kiminlə vuruşmağa məcburuq. Onlar üçün nə əxlaq normaları var, nə şərəf, nə ləyaqət. Ümumiyyətlə, müharibənin necə aparılması barədə anlayışları yoxdur",- deyən Prezident İlham Əliyev Rusiyanın İnterfaks agentliyinə verdiyi müsahibəsində bildirib. Dövlət başçısı deyib ki, bu alçaqlar həmişə saxta, yalançı, mənəviyyatsız olub: "Hətta atəşkəsin Ermənistan tərəfindən pozulması aydın olduqda belə. Moskvada atəşkəs əldə olunmasından heç bir gün keçməmiş onlar Gəncəyə zərbə endirdilər. İndi də, Vaşinqtonda atəşkəs razılaşdırıldıqdan bir gün sonra, özü də bunun üçün onlar yalvarırdılar. Axı, atəşkəs barədə yalvaran onlar idi. Moskvada da, indi də Fransa tərəfinin fəaliyyəti nəticəsində əldə edilmiş atəşkəs pozulub. Bir gün keçmədi, onlar Bərdəni atəşə tutdular. Buna qədər isə onlar Tərtərdə dəfn mərasimini atəşə tutmuşdular. Orada 4 nəfər həlak olmuşdu. Bu, qeyri-insani əməllər onu göstərir ki, baxın, görün, biz kiminlə vuruşmağa məcburuq. Onlar üçün nə əxlaq normaları var, nə şərəf, nə ləyaqət".

Bəli, dövlət başçımızın dediyi kimi: "Onlar üçün nə əxlaq normaları var, nə şərəf, nə ləyaqət".

### Rəzil millət...

Doğrudan da, erməni millləti çox bədbəxt, rəzil millətdir və bu gün belə bir millətlə qonşu olmaq Azərbaycan xalqının taleyində çox acı yaralar açmışdır. Soyqırım, deportasiya və işğal siyasəti "haylar"ın ideologiyasının ana xəttini təşkil edir. Zaman-zaman türk-müsəlmanlara qarşı dəfələrlə qırğın siyasəti yürüdərək, "yersiz gəldi yerli qaç" ifadəsinin bariz nümunəsi kimi Qafqazda bir metr ərazisi olmayan erməni deyilən kiçik bir etnik qrup bu gün dənizdən dənizə "Böyük Ermənistan" yaratmaq iddası ilə bütün dünya ictimaiyyətini bu yalana inandırmağa çalışır. 1992-ci ildə Xocalı kimi bütöv bir şəhəri yer üzündən silməyi, dünya tarixində görünməyən bir vəhşiliklər törətməsi erməni xislətinin əsl mahiyyətinin təzahürü idi. BMT-nin və digər beynəlxalq təşkilatların Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi barəsində qəbul etdyi bütün qərarlara məhəl qoymuyan erməni vandalları əhalini öldürməklə ürəkləri soyumur, müqəddəs ibadətgahlarımızı, məscidlərimizi, mədəniyyət və tarixi memarlıq abidələrimizi terrora məruz qoymuşdular. Buna bariz nümunə üçün qədim və tarixi şəhərimiz olan Ağdamı, Füzulini, Şuşamızı, Kəlbəcərimizi, Qubadlımızı, Zəngilanımızı... və digər rayonlarımızı.

Ermənilər haqqında V.Veliçkonun yaxşı bir sözü var: "Mənəvi təməllərin qarajısayağı dilənçiliklə ələ keçirilməsi, ədəbazlıq və abırsızlıq - erməni siyasətinin müttəfiqləridir. Bu, tam bir siyasətdir, özü də hədə-qorxu ilə bağlı".

### Erməni vandalizmi unudulmayacaq...

Ulu Öndər Heydər Əliyev demişdir: "Tarixi yaddaşsızlıq və unutqanlıq xalqımıza baha başa gələ bilər. Azərbaycanlılara qarşı zaman-zaman törədilən bu ağır cinayətləri unutmamaq, böyüyən nəsli bədxah qüvvələrin məkrli niyyətlərinə qarşı ayıq-sayıqlıq ruhunda tərbiyə etmək mühüm vəziyədir".Bu gün xalqımız dövlətimiz erməni vandalizminin əməlērini dünyay çatdırıb və çatdırmaqdadır. 27 sentyabr- səhər tezdən Ermənistan silahlı qüvvələri Azərbaycana qarşı növbəti hərbi təxribatı və törətdiyi terrorçuluq siyasətini, vandallığını bütün dünya gördü və onun da şahidi oldu ki...

### Haqq yalan üzərində qalib gəldi

Doğrudur, bu təxribatlar nəticəsində itkilərimiz olsa da, haqq yalanlar üzərində qalib gəldi. Azərbaycan düşmənə yerini göstərdi. Azərbaycan Prezidenti xalqa müraciətində dediyi kimi: "Azərbaycan Ordusunun gücü ilə Azərbaycan düşmənə layiqli cavabını verdi və düşmən bir santimetr irəliyə gedə bilmədi. Düşmən dayandırıldı, ölkəmizin ərazi bütövlüyü qorundu. Sarsıdıcı zərbələr nəticəsində Ermənistan tərəfi məcbur olub acı məğlubiyyətlə razılaşdı". Müraciətdə bildirilir ki, Ermənistanın bu təxribatı törətməkdə məqsədi Azərbaycvn torpaqlarınnı işğalına nail olmaq idi: "Onların hərbi-siyasi rəhbərliyi Azərbaycanı yeni işğalla hədələməyə çalışırdı, yeni ərazilər uğrunda yeni işğal siyasəti. Budur, bu gün Ermənistan hərbi-siyasi rəhbərliyinin siyasəti. Digər səbəb Ermənistanda mövcud olan çox ciddi sosial, iqtisadi və siyasi məsələlərdən ölkə əhalisinin fikrini yayındırmaq və Azərbaycandan düşmən obrazı yaratmaqdır". Ali Baş Komandanın rəhbərliyi ilə Şanlı Ordumuz və Azərbaycan xalqı 44 günlük Vətən müharibəsində ermənilərə yaxşı bir tarixi dərs vermişdir. İşğaldan azad olunan bütün Azərbaycan torpaqlarında şanlı üçrəngli bayrağımız dalğalanaraq mənfur düşmənə göz dağı vermişdir. 10 noyabr 2020-ci il tarixdə Ermənistan məğlub olduğunu rəsmən elan edərək Azərbaycan qarşısında diz çökərək təslimçi sülh bağlamışdır. Bütün dünya işğaldan azad olunmuş ərazilərimizdə ermənilərin azərbaycanlılara məxsus olan bütöv şəhərləri, kəndləri, minilliklərlə tarixi olan abidələri, çox sayda məscidləri, mədəniyyət ocaqlarını, şahidi oldu. Bir daha şahid oldu ki, dünya müharibələri tarixində buna bənzər vəhşilik görülməyibdir. Belə ki, bütün ərazilərimizə minalar qoyulması və minaların yerləşdirilməsi ilə bağlı xəritənin təqdim edilməməsi də bir daha erməni vandalizmini təsdiqləyən amildir. Çünki bunun nəticəsində çoxsaylı mülki əhalimiz həlak olur. Bir sözlə, şovonizm, soyqırım, işğalçılıq və vandalizm Ermənistanın dövlət siyasətidir. Ancaq quduzlaşmış Ermənistn anlamalıdır ki, tezliklə tarixi Azərbaycan torpağı olan Zəngəzur dəhlizi vasitəsilə bütün türk dünyası birləşəcək. Bu nəqliyyat dəhlizinin çox böyük əhəmiyyəti Azərbaycanı regionda daha da güclü və qüdrətli dövlətə çevrəcəkdir.

### Azad edilmiş torpaqlar erməni vəhşiliyinin şahididir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci il 16 mart tarixində Şuşa şəhərinə səfəri tarixi hadisələrdəndir. Ona görə ki, milli və sevimli bayram, Novruz bayramı günlərində baş tutan bu səfər xalqımızın qan yaddaşında iz salan ənələrimizin bu gözəl torpaqda reallaşmasına imkan yaratdı. 30 ilə yaxın bir dövrdən sonra gözəl Şuşamız Novruz sevincini yaşadı. Bayram tonqalının şöləsi ucalara qalxdı. Dövlətimizin başçısının qəlbə sevincini birə min artıran bayram əhval ruhiyyəsi insanların ovqatını da rövnəqləndirdi. Azərbaycanın qədim yaşayış məskənlərindəm olan Şuşadakı tarixi abidələr sübut edir ki, Azərbaycan xalqının zəngin və dəyərli tarixi var. Buna misal olaraq Şuşa şəhərinin tarixi mərkəzində yerləşən Qarabağ xanlığının banisi Pənahəli xanın iqamətgahı olmuş tarixi sarayı göstərmək olar. Erməni vandalları işğal zamanı bu tarixi binanı da dağıdıblar.



Düşmən torpaqlarımızı zəbt edib, insanları qovub, tarixi abidələrimizi dağıdıb, sökük, vandallıq edib, barbarlıq edib. Dəhşətli burasıdır ki, onlar işğal zamanı Şuşa şəhərinin mərkəzi meydanında yerləşən, XIX əsrə aid Karvansaray tarix-memarlıq kompleksini də dağıdıblar. Şuşa Dövlət Rəsm Qalereyasının binası, Qarabağ xalçaçılıq sənəti ənənələrinin öyrənilməsi, qorunması və yaşadılması məqsədilə yaradılan Şuşa Xalça Muzeyi də ciddi ziyan görüb. Heç bir tarixi keçmişi olmayan, lakin böyük xülyalarla işğalçılıq əməliyyatları edən, əlbəttə ki, öz himayədarlarının köməkliyi ilə, insanları öldürən, talançılıq edən və bundan sonra başqasının torpaqlarını da darmadağın edərək özünə "tarixi keçmiş", "abidələr" yaratmağa çalışan məkrli düşmənin istəyi baş tutmadı. 30 ilə yaxın dövrdən sonra Azərbaycan Ordusu, şücaətli əsgərlərimiz düşməni məhv edərək torpaqlarımızı azad etdilər. İllər boyu haray çəkən torpaqlarımız düşmən əsarətindən azad olunduqdan sonra, yurdumuzun ərazi bütövlüyü təmin edildikdən sonra insanlar elə bil ki, dərindən nəfəs ala bildilər.

### Erkan Özoral: "Cəbrayılda gördüklərimiz insanlıqdan kənardır, əsl vəhşilikdir"

"Azərbaycanın işğaldan azad etdiyi digər rayonlarında olduğu kimi, Cəbrayılda da eyni mənzərənin şahidi olduq. Bu ərazilərdəki dağıntılardan ibrət götürmək lazımdır". Bu sözləri Türkiyənin ölkəmizdəki səfiri Erkan Özoral Ermənistan tərəfindən yerlə-yeksan edilmiş Cəbrayıl şəhərində jurnalistlərə açıqlamasında deyib."Şəhəri yerlə bir etdiklərini, bütün abidələri, o cümlədən mədəniyyət abidələrini dağıtdıqlarını gördük. Hətta məzarları soyduqlarının, insan sümüklərinin ətrafa səpələndiyinin şahidi olduq. Bunlar insanlıqdan kənardır, əsl vəhşilikdir. Bütün bunların hesabı mütləq verilməlidir", - deyə Erkan Özoral qeyd edib.

### Branko Zebic: "Cəbrayılda belə bir mənzərəni görmək, doğrudan da, çox ağrılıdır"

"Cəbrayılda belə bir mənzərəni görmək, doğrudan, da çox ağrılıdır",deyən Xorvatiyanın ölkəmizdəki səfiri Branko Zebic Cəbrayılda ermənilər tərəfindən törədilmiş dağıntılarla tanış olduqdan sonra jurnalistlərə açıqlamasında deyib.Səfir bildirib ki, xüsusilə qəbiristanlığın tamamilə dağıdılmasını görmək çox ağrılı bir səhnədir: "Bu kimi hallar bizə onu göstərir ki, bu cür hadisələr, münaqişələr baş verməməlidir və bir daha belə mənzərələri yaşamamalıyıq".

### Reza Deqati: "Ermənilər qəbiristanlıqdakı bütün qəbirləri ekskavatorla qazaraq qızıl axtarıblar"

"Cəbrayıl şəhərində bir dənə də olsun salamat ev qalmayıb. Bu, bir dəhşətdir". Bunu dünya şöhrətli fotoqraf Reza Deqati xarici diplomatlar və hərbi attaşeləri Cəbrayıl şəhərindəki qəbiristanlıqdakı vəziyyətlə bağlı məlumatlandırarkən deyib. O vurğulayıb ki, ermənilər bütün qəbirləri dağıdıblar: "Ermənilər qəbiristanlıqdakı bütün qəbirləri ekskavatorla qazaraq qızıl axtarıblar. Hesab edirəm ki, bu insanlığa və bəşəriyyətə qarşı bir cinayətdir. Mən Birinci Qarabağ müharibəsi zamanında da burada olmuşam. Ancaq indi gördüyüm hər şey məni dəhşətə gətirir. Çünki mən nə qədər hərbi münaqişə zonalarında olmuşam və heç yerdə belə dəhşətli mənzərə görməmişəm". Qeyd edək ki, dünyada tanınmış rəssam Reza Deqqəti bildirib ki, son 30 ildə Dağlıq Qarabağ münaqişəsinə, erməni işğalına dair şəkillər çəkir: "Qarabağda müharibə yenidən başlayan kimi mən təkrar Azərbaycana gəldim. İndiyədək dünyanın müxtəlif münaqişə bölgələrində olmuşam. Amma buradakı kimi dəhşəti az görmüşəm. İşğal edilmiş ərazilərdə ermənilər tərəfindən insanlığa qarşı cinayət törədilib. Qəbirlər ekskovatorla qazılıb, sümüklər çıxarılıb. Ermənilər o qədər qəddardırlar ki, cəsədlərin çıxarılmasından ləzzət alıb, qızıl dişlər axtarıblar". Qeyd edək ki, Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri əvvəlcə Cocuq Mərcanlı kəndində olublar. Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev diplomatlara işğaldan azad edilmiş Cəbrayıl və Zəngilan rayonlarına səfər barədə ümumi məlumat verib, həmçinin Cocuq Mərcanlının qayıdış rəmzi olduğunu bildirib. H.Hacıyev qeyd edib ki, "Ermənistan işğal etdiyi torpaqlarda dini yerləri, məscidləri yerlə yeksan edib. Ancaq fəxrlə deyə bilərəm ki, mənim ölkəmdə məscidlər, sinaqoqlar, kilsələr qorunur və yanaşı yerləşir". O qeyd edib ki, yenidənqurma prosesində bütün dağıdılmış dini abidələr bərpa ediləcək: "Biz Prezidentin dediyi kimi, yenidənqurma işlərində qərarlı və qətiyyətliyik. Bərpa prosesi ilə bağlı artıq layihələr təsdiqlənib".Bəli, bu gün terrorçu və işğvlçı Ermənistanın barbarlığı, vandallığı heç də təəccüb də doğurmur. Çünki terrorçu Ermənistan bütün dünyada işğalçılıq siyasəti ilə qəbul edilir. Azərbaycan isə həmişə haqq və ədalətin bərpası uğrunda mübarizə aparıb. Məhz sentyabrın 27-də Ermənistan Silahlı Qüvvələrinin Azərbaycana qarşı İkinci Vətən Müharibəsində Ali Baş Komandanımız, Prezident İlham Əliyev diplomatik siyasəti, Müzəffər Ordumuzun gücü, rəşadətli əsgər və zabitlərimizin şücaəti nəticəsində işğal altında olan torpaqlarımızın həsrətinə noyabrın 10-da son qoyuldu. Qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi, 44 gün ərzində Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz bütün dünyaya öz qüdrətini, gücünü nümayiş etdirdi. Və Azərbaycan Prezidenti, Ali Baş Komandanımız İlham Əliyev dediyi kimi: "Qarabağ Azərbaycandır və nida" ifadəsi artıq bizim qələbəmizin rəmzi idi, rəmzinə çevrildi. Bir il bundan əvvəl mən bunu demişəm. Mən fəxr edirəm ki, mənim dediyim ifadə artıq bir milli şüara çevrildi. Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!".Bəli, biz haqlıyıq, biz zəfər çaldıq, Ermənistan isə kaputulasiya olu. Ali Baş Komandan, ölkə Prezidentinin bildirdiyi kimi: "Nə qədər ki, Ermənistan bu təxribatçı əməllərdən əl çəkməyəcək, Azərbaycan Ordusu onları bundan sonra da cəzalandıracaq".

Bəli, Cənubi Qafqazda terrorçu, işğalçı, barbar dövlət Ermənistan törətdikləri cinayət əməllərinə görə tarix qarşısında tezliklə cavab verəcək.

**RƏFİQƏ HÜSEYNOVA**

# Koronavirus peyvəndi olanlara VACİB XƏBƏRDARLIQ!

**"BioNTech" peyvəndinin gəlməsi ilə işlər sürətlənib. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, mütəxəssislər peyvənd olanların rahatlanmamaları lazım olduğunu söyləyərək xəbərdar ediblər. Onların sözlərinə görə, peyvənd yoluxmanın qarşısını almır, əgər şəxs xəstədirsə, onun ağır bir xəstəlik keçirməsinin qarşısını alır: "Bu səbəbdən vaksinasiya olunanlar maska ??taxmağa davam etməli və məsafəni unutmamalıdır".**



Çinin "Sinovac" şirkətinin "CoronaVac" peyvəndinin ardınca Alman-ABŞ əməkdaşlığı çərçivəsində "BioNTech" peyvəndinin gəlməsi ilə vaksinasiya olanlara seçim təklif edilib. Bu vəziyyət onların seçimi ilə bağlı suallar yaradıb.

Səhiyyə nazirliyi koronavirus elmi komitəsinin həkimi Mustafa Necmi İlhan hər iki peyvənddəki qoruma nisbətinin yüzdə 80-dən çox olduğunu deyib: "Hər ikisi də yüksək təsirli və yan təsirlərinin olmasına görə çox oxşardır. "Sinovac" Türkiyədə görülən işlərlə müqayisədə yüzdə 83, "biontex" tərəfindən xaricdə edilən işlərin yüzdə 90 ətrafında aktivlik var. Peyvənd olunmaq yoluxmanın qarşısını almır. Əgər, insan xəstədirsə, bu onun ağır bir xəstəlik keçirməsinə mane olur. Buna görə, vaksinasiya olunan insanlar məsafəyə diqqət yetirin və maskalarını çıxarmayın. Vaksinasiya olsa belə, virusun ötürülməsi davam edir".

## Hansını seçməlisiniz?

İnfeksion xəstəliklər üzrə həkim Mehmet Ceyhan, vətəndaşlara peyvənd seçmək hüququ verilməsinin gözəl təklif olduğunu, bunun qarışıqlığa səbəb ola biləcəyini söyləyib: "Seçim hüququnun müsbət nəticələr verməsi üçün insanlar peyvənd və epidemiya haqqında müəyyən bir məlumata sahib olmalıdırlar. Peyvəndlər arasında hansı fərqlərin olması kimi məlumatlara baxmaq lazımdır. Əslində, "effektivliyə" baxdığımızda, iki peyvəndi də müqayisə etmək olduqca çətindir. Belə bir müqayisə aparmaq üçün eyni cəmiyyətdə eyni zamanda və eyni şərtlərdə, fərqli qruplarda iki peyvənd etmək və onları müqayisə etmək lazımdır. Belə bir araşdırma hələ edilməyib. Yan təsirlər baxımından, hərəkətsiz peyvəndin daha az yan təsir göstərəcəyini gözləyirik, çünki bədəndə inkişaf etməyən bir peyvənddir. Hazırda, istifadə olunan peyvəndlər təhlükəsizdir. Bu məlumatlardan istifadə edərək insanlar qərar verəcəklər. Həkimlərin söylədiyi bəzi səhv təkliflər var. "Bu yaş qrupundasınızsa, bunu edin, bu xəstəliyiniz varsa bunu edin" kimi bir şey tamamilə yoxdur. "BioNTech" çıxana qədər hər kəs üçün "Sinovac" hazırladıq".

*Ayşən Vəli*

# "Ermənistan törətdiyi bütün cinayətlərinə görə cavab verməli olacaq"



"Azərbaycan xalqı zəngin tarixi və mədəni irsə sahibdir. Bu zənginliyi əsrlərdən ötüb gələn tarixi, mədəni və dini abidələrimiz də özündə əks etdirir. Amma təəssüflər olsun ki, mənfur qonşularımız olan ermənilər hər fürsətdə bizim tarixi keçmişimizə əl uzatmağa çalışıb, bir sıra milli adətlərimizi özününküləşdirməyə çalışıb, ərazilərimizdəki qədim alban-xristan abidələrini erməni "irsi" kimi təqdim etməyə cəhd edib". Bu fikirləri "İki sahil"ə açıqlamasında Milli Məclisin deputatı Ramin Məmmədov deyib.

Deputat bildirib ki, Ermənistan 30 ilə yaxın müddət ərzində işğal altında saxladığı Azərbaycan ərazilərində vandalizm aktı törədib, bütün maddi, mədəni, tarixi və dini abidələr məhv edilib. Ermənistan Azərbaycan xalqının irsini qəsdən hədəf alan, bir vaxtlar işğal olunmuş ərazilərdə çoxsaylı hərbi cinayətlər həyata keçirib. Təkcə onu demək kifayətdir ki, ermənilər tərəindən bu dövrdə 70-ə yaxın məscid, çoxlu sayda məədni-tarixi abidələr məhv edilib. Ermənilərin bu vandallığı xalqımızın mədəni-tarixi irsinə qarşı soyqırımıdır. Azərbaycan Ermənistanın bu cinayətləri haqqında müvafiq beynəlxalq təşkilatları məlumatlandırıb və qarşısının alınmasını tələb edib. Amma Ermənistan işğalçılıq siyasətini davam etdirdiyi dövrdə beynəlxalq missiyaların Azərbaycanın işğal olunmuş ərazilərini ziyarət etməsinə icazə verməyib.

Millət vəkilinin sözlərinə görə, 44 günlük Vətən müharibəsi nəticəsində Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə rəşadətli ordumuz torpaqlarımızı erməni işğalından azad etdik. Biz artıq ermənilərin torpaqlarımızda hansı vəhşiliklər törətdiyinin əyani şəkildə şahidi olduq. Təbii ki, Azərbaycan dövləti Ermənistanın mədəni-tarixi irsimizə, dini abidələrimizə vurduğu ziyanın dünya ictimaiyyətinə çatdırılması istiqamətində sistemli tədbirlər həyata keçirir. Cənab Prezident İlham Əliyev bütün beynəlxalq platformalarda çıxışları zamanı, xarici KİV-lərə müsahibələrində bu barədə ətraflı məlumatlar verir. Eləcə də, Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu bu istiqamətdə vacib layihələr həyata keçirir.

"Bütövlükdə, cəmiyyətimiz bu prosesdə fəaldır. Bilirsiniz ki, işğaldan azad olunmuş ərazilərimizə diplomatik korpusun nümayəndələrinin, yerli və xarici KİV-lərin, eləcə də müxtəlif beynəlxalq təşkilatların nümayəndələrinin səfərləri təşkil olunur. Burada məqsəd erməni vandalizminin beynəlxalq ictimaiyyətinin diqqətinə çatdırılmasıdır. Əlbəttə ki, Ermənistanın bu cinayətləri cavabsız qalmayacaq. Dövlətimiz tərəfindən bu cinayətlər sənədləşdirilərək müvafiq beynəlxalq təşkilatlara təqdim olunur. Ermənistan törətdiyi bütün cinayətlərinə görə cavab verməli olacaq",- deyə R.Məmmədov vurğulayıb.

# "İsgəndər raketi ilə bağlı Azərbaycanın haqlı mövqeyi beynəlxalq müstəvidə qaldırılmalıdır"

**"İkinci Qarabağ məsələsinin gedişində Azərbaycana müxtəlif tipli Ermənistan ərazisindən raketlər atılıb. Bu raketlər ballistik və onlar birbaşa yaşayış məntəqələrini hədəf seçiblər". Bunu SİA-ya açıqlamasında politoloq Məhəmməd Əsədullazadə deyib.**




Ekspert qeyd edib ki, Ermənistan ərazisindən dağıdıcı raketlərin atılması Azərbaycanı öz hədəfində yayındıra bilmədi. Məhz Şuşanı işğaldan azad etməklə birbaşa hərbi qələbəsini təmin edib. Amma Ermənistan və Rusiya Azərbaycanın Şuşanı götürməməsi üçün məlum oldu ki, Şuşaya dağıdıcı gücə və müasir silah olan ballistik"İsgəndər M" atılıb. İki ədəd atılan bu raketlərin partlamaması Rusiyanın hərbi və kosmik sənayenə ciddi zərbə vurdu. Buna baxmayaraq, bu raketlərin buraxılışı birbaşa hərbi cinayətdir və iki ölkə məsuliyyət məsuliyyət daşıyır".

M. Əsədullazadə vurğulayıb ki, ilk növbədə Rusiya bu məsələdə əsas tərəfdir: "Rusiya bunu boynundan atır. Buna baxmayaraq rəsmi Bakı Moskvadan izahat tələb etməlidir. Qeyd edim ki, Rusiya çalışır ki, bir çox məsələlərdə xüsusilə Qarabağda istədiyi bir siyasəti reallaşdırsın. Sülhməramlı qüvvələrinin məsuliyyət zonasında demək olar ki, milli maraqlarımıza qarşı fəaliyyət planı həyata keçirir. Ona görə də İsgəndər raketi ilə bağlı Azərbaycanın haqlı və ədalətli mövqeyi mütləq şəkildə beynəlxalq müstəvidə qaldırılmalı, bu tipli oxşar hərbi cinayətlərinin qarşısının alınması istiqamətində işlər aparılmalıdır".

*Aysel Məmmədova*

# Qazaxıstan səfiri AMEA Mərkəzi Elmi Kitabxanasında olub

**Qazaxıstan Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Serjan Abdıkarimov və səfirliyin I katibi Akbota Mussabayeva AMEA Mərkəzi Elmi Kitabxanasında olublar. AMEA Mərkəzi Elmi Kitabxanasının İctimaiyyətlə əlaqələr şöbəsindən SİA-ya verilən məlumata görə, MEK-in direktoru, professor Məmməd Əliyev qonaqları AMEA prezidenti, akademik Ramiz Mehdiyevin və öz adından salamlayaraq, kitabxanada görməkdən məmnunluğunu ifadə edib.**

Kitabxananın fəaliyyəti və tarixi ilə bağlı qonağa ətraflı məlumat verən Məmməd Əliyev, rəhbərlik etdiyi müəssisənin beynəlxalq əlaqələr sahəsindəki fəaliyyətindən və bu fəaliyyətin nəticəsi olaraq bir çox xarici ölkələrlə kitab mübadiləsi barədə qurduqları əlaqələrdən söhbət açaraq, Qazaxıstan kitabxanalarının da bu baxımdan əhəmiyyətini qeyd edib. Səfirin MEK-ə səfərini yüksək qiymətləndirən direktor, Qazaxıstan kitabxanaları ilə əlaqələrin daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyətə malik olduğunu vurğulayıb. Bu gündən etibarən MEK-də "Qazaxıstan həftəsi" adlı kitab sərgisinin fəaliyyətə başladığını qeyd edib.





Səfir Serjan Abdıkarimov kitabxanada yüksək səviyyədə qarşılanmasından şad olduğunu bildirib. Həmçinin 44 günlük Vətən müharibəsində əldə olunmuş qələbə münasibəti ilə Azərbaycan xalqını təbrik edən səfir, Azərbaycanda fəaliyyət göstərən diplomatik korpusun nümayəndələri ilə işğaldan azad edilmiş bölgələrdə səfərdə olduğunu vurğulayıb. O, iki ölkə arasında olan dostluq əlaqələrinin daha da möhkəmlənməsi, qarşılıqlı beynəlxalq kitab mübadiləsinin əhəmiyyətindən və gələcək əməkdaşlıq barədə danışıb. Serjan Abdıkarimov, MEK-də qazax ədəbiyyatının əhatə olunduğu elektron kataloq və qazax ədəbiyyatı fondunun yaradılması fikrini irəli sürüb. Səfirin təklifinə toxunan Məmməd Əliyev qeyd edib ki, bütövlükdə türkdilli dövlətlərin ədəbiyyatları fondunun gələcəkdə yaradılması gözlənilir.

Sonra kitabxana ilə tanışlıq olub. Professor Məmməd Əliyev 44 günlük Vətən müharibəsi zamanı əzəli Azərbaycan torpaqlarının işğaldan azad olunmasında göstərdikləri şücaətlərə görə ölkəmizin igid oğullarının adlarını əbədiləşdirmək üçün MEK tərəfindən yaxın günlərdə oxucuların istifadəsinə veriləcək "Qarabağ müharibəsi qəhrəmanları fondu" haqqında qonaqlara ətraflı məlumat verib. Həmçinin, qonaqlar Azərbaycan Milli Elmlər Akademiyasının təsisçilərinin büstləri, təsisçi və akademiklərin portretlərinin olduğu akademik zal, Heydər Əliyev və Azərbaycan dövlətçiliyi şöbəsi ilə yaxından tanış olublar. Ölkəmizin xaricdəki nümayəndəliklərinin kitabxanaya etdikləri hədiyyələrdən ibarət diplomatik fondda digər dövlətlərlə yanaşı, Qazaxıstan səfirliyi tərəfindən bağışlanan nəşrlərin MEK-də kolleksiya şəklində saxlanıldığı guşənin olması qonaqlarda məmnunluq hissi yaradıb. Həmçinin qonaqlar MEK-də təşkil olunan "Qazaxıstan həftəsi" adlı kitab sərgisi ilə tanış olublar.

Görüş zamanı səfir Serjan Abdıkarimov gətirdiyi kitabları MEK-ə hədiyyə edib. Əsasən rus və ingilis dillərində olan həmin kitablarda Qazaxıstan dövləti, onun coğrafiyası, müasir şəhər arxitekturası, tarixi və digər mənbələr yer alıb.

Öz növbəsində MEK-in direktoru Məmməd Əliyev bildirib ki, bu il Azərbaycanda XII əsr Azərbaycan mütəfəkkiri və şairi Nizami Gəncəvinin 880 illiyi qeyd olunur. Bu münasibətlə professor AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyevin rus dilində "Nizami Gəncəvi: mütəfəkkirin irsi dünya mədəniyyəti və milli özünüdərk kontekstində" adlı kitabı qonaqlara hədiyyə edib.

Görüş əsnasında Qazaxıstan Respublikasında fəaliyyət göstərən akademik kitabxanalarla birgə əməkdaşlıq sahəsində fikir mübadiləsi aparılıb və yaxın zamanlarda bu əməkdaşlığın reallaşdırılması ilə bağlı qərar qəbul edilib.

Səfir Serjan Abdıkarimov MEK-in xatirə kitabında öz ürək sözlərini bölüşərək kitabxananın fəaliyyətini yüksək qiymətləndirib. Sonda qonaqlar yüksək səviyyədə təşkil olunan görüşə və qonaqpərvərliyə görə Milli Elmlər Akademiyası və kitabxana rəhbərliyinə təşəkkürlərini bildiriblər.

*Rövşən RƏSULOV*

# "Paşinyan Moskvada Putinlə görüşə başlayarkən..."



"Ermənistanın baş naziri Nikol Paşinyanın Moskvada Putinlə görüşə başlayarkən media qarşısında diqqəti çəkən 3 açıqlaması var idi". Bunu SİA-ya politoloq Elxan Şahinoğlu deyib. "Birincisi o dedi ki, guya əsirlər məsələsində Rusiya Ermənistanla ortaq baxışa malikdir. İkincisi dedi ki, Dağlıq Qarabağ məsələsi hələ tam həll olunmayıb. Üçüncüsü də bildirdi ki, Rusiyanın Ermənistanda yeni atom elektrik stansiyasının inşasını istəyir.

Paşinyanın görüşdən əvvəl əsirlər barədə dediyi erməni cəmiyyətinə ünvanlanmışdı. Paşinyan bununla göstərmək istəyirdi ki, erməni cəmiyyətini narahat edən mövzunu Rusiya prezidenti ilə geniş müzakirə edəcək. Halbuki, Putin görüşdən əvvəl bu barədə heç nə demədi. Bu mövzu Moskvanı narahat etmir. Bu mövzunu səsləndirmək parlament seçkisi öncəsi Paşinyana lazımdır.

Atom elektrik stansiyası təklifinə gəldikdə, bu da Paşinyanın taktiki gedişidir. Ermənistanın baş naziri bu təklifi səsləndirməklə Putinə göstərmək istədi ki, Msokvaya əliboş gəlməyib. Ancaq kasıb Ermənistanda ikinci atom elektrik stansiyası tikmək Rusiyanın nəyinə lazımdır?

Birincisi, mütəxəssislərin ilkin hesablamalarına görə Ermənistanda ikinci atom elektrik stansiyasının tikintisi 3-7 milyard dollara başa gələ bilər. Bunu kim maliyyələşdirəcək? Ermənistanın pulu yoxdur. Demək İrəvan tikintinin maliyyəsini Rusiyaya yükləmək istəyəcək. Rusiya həmin pulu xərcləyib o şərtlə Ermənistanda atom elektrik stansiyası tikmək istəyər ki, qoyduğu investisiyanı geri qaytara bilsin. Ancaq bunun üçün mifik stansiya tikildikdən sonra əhaliyə elektrik enerjisi baha satılmalıdır ki, Rusiya pulunu geri qaytara bilsin. Ermənistanın kasıb əhalisi baha qiymətə elektrik enerjisi ala biləcəkmi?

İkincisi, rusiyalı ekspertlər bildirirlər ki, atom elektrik stansiyasının korpusları Rusiyadan Ermənistana daşınmalıdır. Ancaq Rusiyanın Ermənistanla sərhəddi yoxdur. Həmin korpuslar isə ya dəniz, ya da dəmiryolu ilə Rusiyadan Ermənistana çatdırıla bilər. Ermənistan hər ikisindən məhrumdur. Rusiya Abxaziyanın ilhaqıyla bağlı Gürcüstan dəmiryolundan istifadə edə bilmir. Demək yerdə qalır, həmin korpusları Azərbaycan üzərindən Ermənistana daşımaq. Ancaq bunun üçün Ermənistan Zəngəzur üzərində vaxtilə sökdüyü dəmiryolunu bərpa etməlidir və Azərbaycanla münasibətləri normallaşdırmağa başlamalıdır ki, Rusiya Azərbaycan dəmiryolu üzərindən həmin korpusları Ermənistana çatdıra bilsin.

Beləliklə, Nikol Paşinyanın Rusiyaya səfəri başa çatdı. Moskvada heç bir sənəd imzalanmadı. Moskvada Putindən çox Paşinyan danışdı. Seçki öncəsi çox danışmaq Paşinyana lazımdır. Əsirlər mövzusuna maraq göstərməyən Moskvaya Azərbaycanla Ermənistan arasında nəqliyyat xətlərinin açılması lazımdır. Bunu isə Paşinyan seçkiyə qədər uzatmağa çalışır ki, müxalifətin təzyiqi ilə üzləşməsin. Digər tərəfdən Paşinyanın beynini hələ də bu sual məşğul etməlidir: "Vladimir Putin məndən bir gün əvvəl əsas rəqibim Robert Köçəryanı Moskvaya dəvət edib onunla 1 saat müzakirə aparmaqla nə demək istədi?"-deyə, politoloq fikrini tamamlayıb.

*Ceyhun Rasimoğlu*

# Ermənistanda qeyri-ərzaq mallarının da qiyməti artır




"Ermənistanda gözlənilən iqtisadi bum olmadı. Əksinə, biz 2020-ci ildə hər şeyi itirdik. Ona görə də bu gün iqtisadiyyatı bərpa etmək üçün səylərimizi üç dəfə artırmalıyıq". Qeyd edək ki, bu fikirləri "Mənim Adımım" fraksiyasından olan parlamentin iqtisadi məsələlər daimi komissiyasının rəhbəri Babken Tunyan verdiyi son açıqlamalarının birində deyib. SİA bu barərə erməni mətbuatına istinad edir.**

Ermənilərə görə, maraqlısı budur ki, Paşinyanın Ermənistandakı iqtisadi inkişafla bağlı dediklərinin fiyasko olduğunu etiraf edən Tunyan, bunula belə Nikola haqq qazandırmağa da çalışıb. Belə ki, o, ölkədə "investisiyaların fərdlərlə əlaqələndirilməsi və hökumətin dəyişdirilməsinin zəruriliyi" barədə deyilənləri səhv adlandırıb. Tunyana görə, investorlar üçün ölkəni kimin idarə etməsi elə də maraqlı deyil. Onlar üçün ən önəmli məsələ çox pul qazanma, qazanc əldə etmə, risklərdən qorunma və s-dir. Yəni ölkədə kimin rəhbər olması onların heç veclərinə belə deyil: təki hüquqları qorunsun.

Bu yerdə erməni saytları Tunyana sual verirlər: bəs niyə Paşinyan hakimiyyətdə olduğu ərəfədə ölkədən qaçmağa imkan tapa bilməyən investorlar üçün "normal işləyən system" yarada bilmədi? Əslində, ermənilərin ehtimalına görə, burada "hökumət dəyişməməsi"nin vacib olduğunu söyləyən Tunyan bunu deməklə, elə özünün də daxil olduğu hakimiyyət səlahiyyətlilərinin yerli və xarici investorlara qarşı çoxsaylı qalmaqallı hücumlarının üstünə pərdə çəkmək istəyir.

Əslində isə, nikolçular bunları deməklə vaxtilə ermənilərin dünyada nümayiş etdirməyə çalışdıqları "erməni demokratiyası"nı "malalamağa" cəhd edirlər. Maraqlıdır ki, daha bir nikolçu, Ermənistan Dövlət Nəzarət Xidmətinin rəhbəri Tiqran Uluxanyan da Tunyana haqq qazandırır. Yəni o da Paşinyan dövründə ölkədə qurulan idarəetmə tərzini, "məxmər" gücünün keyfiyyətini yüksək səciyyələndirir. Onun sözlərindən belə çıxır ki, mövcud iqtidarın siyasi iradəsi, siyasi qərarları praktik olaraq qınanmaz olsa da, problem onların həyata keçirilməsini təmin edə bilməyən dövlət idarəetmə sistemindədir.

Uluxanyana görə, Ermənistanda siyasi qərarlar qəbul etmək üçün ilkin məlumat bazasının keyfiyyəti çox aşağı səviyyədədir. Beləliklə məlum olur ki, bir tərəfdən səlahiyyətlilər qərarlar verir, digər tərəfdən dövlət idarəetmə sistemi bu qərarları öz məntiqi nəticəsinə gətirmir. Təbii ki, bütün bunlar öz yerində. Amma reallıq budur ki, bu gün Ermənistanda təkcə ərzaq mallarının deyil, həm də qeyri-ərzaq mallarının qiymətlərində 8.4 faiz artım olub.

*Ağasəf Babayev*

# Erməni revanşistləri üstümüzə azyaşlıları göndərəcəklər?

## *Və ya "Hitleryugend"dən "Njdeyugend"ə doğru...*




**44 günlük Vətən müharibəsindən sonra Ermənistanın siyasi-ictimai dairələrində revanşist qüvvələrin hələ də "yeni müharibə" ətrafında səs-küy salma faktları davam edir. SİA xəbər verir ki, xüsusilə sosial şəbəklərdə və bir sıra infiormasiya resurslarında faşizm ideologiyasının təbliği ətrafında fikirlər ictimailəşdirilir.**

Belə ki, "HAYASA" sosial şəbəkə seqmentində üzə çıxan növbəti akt da bunu sübut edir, lakin bununla yanaşı, istehza doğurur. Məsələ ondadır ki, hələ müharibədən əvvəl könüllü dəstələri yığılarkən, qadınlardan ibarət batalyonlar yaradıb, guya Azərbaycana qarşı savaşacaqlarını iddia edənlər bu dəfə erməni azyaşlı uşaqlarını necə deyərlər, üstümüzə göndərməyi planlaşdırırlar.

Hitler Almaniyasına nökərçilik etmiş faşist Qaregin Njdenin adına bənzər təşkilat yaratmaq iddiasına düşüblər

Ancaq azyaşlı erməni uşaqlarının toplaşacağı ad məlum olduqdan sonra bu məsələ erməni revanşistlərinin şizofrenik xəstəliyə mübtəla olmaları da fakt olaraq sübuta yetirilməkdədir. Hələ ikinci dünya müharibəsində Almaniya faşizminin lideri Adolf Hitlerin şəninə təşkil edilən "Hitleryugend" - yeniyetmə və azyaşlılardan ibarət hərbi dəstələr müharibənin sonunda sovet qoşunlarına qarşı çıxarılırdı və onlar demək olar ki, açıq-aşkar ət maşınının ağzına verilirdilər.

İndi isə erməni revanşistlər məhz Hitler Almaniyasına nökərçilik etmiş faşist Qaregin Njdenin adına bənzər təşkilat yaratmaq iddiasına düşüblər. Adını isə "Njdeyugend" qoymağı planlaşdırıblar. Bu kimi acı və düşündürücü reallıq isə ortaya daha bir faktı çıxarır - məhz belələrinin hesabına erməni xalqı zəhərlənir və məhvə doğru sürüklənidirilir. Hər halda, mövcud məsələ bir sıra ermənilərin hələ də ağıllanmadıqlarını, hətta bundan sonra da ağıllanmayacaqlarını isbat edən gerçəkliklidir.

*R. Nurəddinoğlu*

FOTOFAKT

# Erməni hüquq müdafiəçisindən maraqlı etiraflar

## Georgi Vanyan: "Ermənistanın daxilində Robert Koçaryana heç bir dəstək yoxdur"



Bugünlərdə Vladimir Poznerə müsahibə verən Ermənistanın eks-prezidenti Robert Koçaryan iddia edir ki, o, ölkəsində keçirilməsi gözlənilən növbədənkənar parlament seçkilərinə ciddi hazırlaşır və eyni zamanda, qələbə qazanmağa iddialıdır. Müsahibəsindən əvvəl isə Koçaryanın Rusiyanın prezidenti Vladimir Putinlə təxminən bir saatlıq telefon danışığı baş tutmuşdu.

Bu arada isə Ermənistanın baş naziri Nikol Paşinyan aprelin 7-də Moskvada rəsmi səfərdə olub və heç bir razılaşma əldə edə bilməyib. Nikol Paşinyanın özü isə Vladimir Putinlə görüşünü məhsuldar adlandırıb, ancaq etiraf edib ki, heç bir sənədə imza atılmayıb.

### "Mən qorxan bir insanı gördüm"

SİA tanınmış erməni insan haqları müdafiəçisi Georgi Vanyanın mövzu ilə bağlı rusdilli caliber informasiya mərkəzinə verdiyi müsahibəsində irəli sürdüyü fikirləri diqqətə çatdırır. O, Rusiyanın vasitəsi ilə Robert Koçaryanın Ermənistana təsir aləti rolunu oynaması qənaətində olduğu qənaətinə gələrək deyib ki, eks-prezidentin Poznerə müsahibəsini izləyib və orada heç bir qətiyyətin və özünəinamın şahidi olmayıb.

"Mən qorxan bir insanı gördüm. Ermənistanın daxilində Robert Koçaryana heç bir dəstək yoxdur. Yalnız ona yaxın olanlar, onun qazanından yeyənlər istisnadırlar. Ancaq onların da sayları azdır", deyə Vanyan müsahibəsində bildirib.

### "Ermənistanı gərginlikdə saxlamaq - Koçaryan bu təsir üçün alətdir"

Koçaryanın Moskvanın yardımına söykənməsi, Rusiyanın namizədi olması, həmçinin Rusiyaya belə namizədin nəyə görə lazım olması sualını cavablandıran erməni hüquq müdafiəçisi bildirib ki, Rusiyanın forpostu olan Ermənistanda hər şey forpostda olduğu kimi baş verir və burada təəccüblü heç nə yoxdur - Ermənistan zəif ölkədir, ancaq sahibinə lazımdır ki, o daha da zəif olsun.

"Mənim baxışımca, Rusiya Robert Koçaryanı xüsusi olaraq irəli çəkmir. Siz doğru soruşdunuz ki, o nəyə görə Moskvaya lazımdır? Rusiya onu sona qədər istifadə etməyib. Lakin bir funksiya qalıb, Ermənistanı gərginlikdə saxlamaq - Koçaryan bu təsir üçün alətdir", deyə Vanyan bildirib.

### "Hakimiyyət təmsilçiləri anlaşılan dillə Azərbaycan və Türkiyə ilə münasibətlərdən danışmağa çalışırlar"

Erməni hüquq müdafiəçisi Ermənistanda Nikol Paşinyana və onun siyasi addımlarına əhalinin bir qisminin dəstək göstərməsi ilə də bağlı fikirlərini açıqlayarkən qeyd edib: "Problem ondadır ki, Nikol Paşinyana alternativ yoxdur, belə ki, Ermənistanda siyasi sahə mövcud deyil. Kimin arasından seçməlidirlər? Ona görə də Nikol Paşinyan liderlik edir. Bizim sizinlə söhbətimizdən sonra Ermənistanda siyasətdə heç nə dəyişilməyib. Ancaq hakim siyasi gücü təmsil edənlərin ritorikası dəyişilib. Onlar anlaşılan dillə Azərbaycan və Türkiyə ilə münasibətlərdən danışmağa çalışırlar. Bu isə məni sevindirir. Bu yaxınlarda parlamentin vitse-spikeri, hakim "Mənim addımım" fraksiyasının təmsilçisi Lena Nazaryan deyib ki, parlament seçkilərinə gedən bütün siyasi qüvvələr Bakı və Ankara ilə qarşılıqlı münasibətlər məsələsində fikirlərini dəqiq bildirməlidirlər. Axır ki, real siyasət görünməyə başlayır və bu da bir daha vurğulayıram ki, məni çox sevindirir", erməni hüquq müdafiəçisi Georgi Vanyan sözügedən müsahibəsində sualları cavablandırarkən bildirib.

*Rövşən RƏSULOV*

ANALİTİK+AKTUAL

# Əli Kərimli Elçibəyi aldadaraq 2 milyon dolları necə mənimsəyib?

## Cümşüd Nuriyev: "Bu pul Türkiyənin Yapı Kredi bankından ötürülmüşdü İngiltərədəki Loyd banka"



**AXCP sədri Əli Kərimlinin özünü cəmiyyət arasında, xüsusilə partiyadaşları qarşısında "aydan arı, sudan duru" qismində təqdim etməklə, eyni zamanda, "süddən çıxan ağ qaşıq" kimi davranması əslində onun heç də belə bir adam olduğunu sübuta yetirmir. Əslinə qalanda, bu ünsürün barəsində mövcud olan onlarla dələduzluqların, maxinatorluq faktlarının bu gün də ortada olması kimsəyə sirr deyil.**

Lakin belə faktlar demək olar ki, zaman-zaman daha da artır və bir daha isbat edir ki, Əli Kərimli nəinki təmiz insan deyil, həm də şəxsi maraqlarına görə güvən qazandığı insanların da kürəklərindən xəncər saplamağa qadirdir. O ki, qala dövlət maraqlarına - bu adam dövlət katibi olarkən həmin prinsiplərə qarşı da xəyanət edərək, büdcəyə gələn maliyyə vəsaitlərini OĞURLAMAQLA (!!!) məşğul olub. Bunu isə biz deyil, zamanında AXC sıralarında yer alan və aparıcı funksionerlərdən biri kimi tanınan şəxs - hazırda politoloq kimi fəaliyyət göstərən Cümşüd Nuriyev təsdiq edir. SİA xəbər verir ki, onun televiziyada verdiyi şok açıqlaması isə həqiqətən də Əli Kərimlinin kim olduğu məsələsini bütün çılpaqlığı ilə açığa çıxarır.

**"Marqaret Tetçer Azərbaycana səfər edərkən, özü ilə birlikdə 30 milyonluq bonus gətirmişdi və bu bonus birbaşa Əbülfəz Əliyevin (Elçibəyin) adındsa idi"**

Cümşüd Nuriyev qeyd edir ki, AXCP iqtidarı dövründə Böyük Brtitaniyanın baş naziri Marqaret Tetçer Azərbaycana səfər edərkən, özü ilə birlikdə 30 milyonluq bonus gətirmişdi və bu bonus birbaşa Əbülfəz Əliyevin (Elçibəyin) adındsa idi. "Həmin pul Türkiyədə banka qoyulmuşdu və biz Türkiyəyə gedərək, bankla əlaqəyə girdik. Pulun 13 milyonunu bərpa edə bildik. 17 milyon isə pul itmişdi", deyən Cümşüd Nuriyev qeyd edib ki, orada başqa bir məsələ də ortaya çıxd.

**"Məlum oldu ki, Elçibəyi aldadan Əli Kərimlidir, ona qol çəkdirib, iki milyon dolları aldadaraq öz hesabına keçirib"**

O, davam edib: "Xalq Cəbhəsi niyə dağıldısa onun məsələsini açıqlayım. Çünki camaat bunu bilmir. Məlum oldu ki, Elçibəyi aldadan Əli Kərimlidir, ona qol çəkdirib, iki milyon dolları aldadaraq öz hesabına keçirib. Bu pul Türkiyənin Yapı Kredi bankından ötürülmüşdü İngiltərədəki Loyd banka. O transferlərin də kağızlarını biz gətirdik və Xalq Cəbhəsi biləndən sonra ki, pulun 2 milyonunu bu (Əli Kərimli) götürüb, bir günün içində param-parça dağıldı".

Maraqlıdır ki, bu kimi danılmaz faktların ictimailəşdirilməsindən sonra da özünü AXCP-nin sədri kimi zorla ictimai rəyə sırıyan Əli Kərimli utanmadan, qızarmadan öz oğurluqlarını, dələduzluqlarını gizlətdiyini sanaraq hakimiyyətə qarşı yersiz, sübutsuz, yalançı və böhtançı iddiaları ilə çıxışlar edir, sosial şəbəkələrdə, eləcə də xaricdə Azərbaycan dövlətinin əleyhinə fəaliyyət göstərən satılmış, xəyanətkar sosial şəbəkə kanallarında "başbilənlik" roluna girir. Halbuki, demə OĞRUNUN ən böyüyü, ən təhlükəlisi və satqının da əsas "siması" elə Əli Kərimlinin özü imiş. Sadəcə, o unudur ki, dövlət vəsaitini şəxsi malı kimi mənimsəməklə, eləcə də dövlət başçısını (Əbülfəz Elçibəyi) aldadaraq ona imza atdırmaqla böyük bir cinayət törədib. İndi belə bir sual yaranır - görəsən dövlət vəsaitini mənimsədiyi üçün ona qarşı cinayət işi qaldırılacaqmı? Gözləyərik və görərik...

***Rövşən RƏSULOV***

# Müttəfiqdən ermənilərə növbəti "hörmətsizlik"...



**"Düşdüyümüz dərin çaladan çıxmaq ipucu axtardığımız bir məqamda ətrafımızda birbaşa qlobal və regional inkişaflar davam edir. Təbii ki, bu da bizə birbaşa çox pis təsir göstərir". Bunu hazırda sabiq prezident Serj Sarkisyanın yanında kargüzarlıq edən Armen Aşotyan Avropa Şurasının prezidenti Şarl Mişel və Komissiyasının rəhbəri Ursula Van der Lyanın Türkiyəyə etdikləri səfərə münasibət bildirərkən deyib. SİA xəbəri erməni mətbuatına istinadən dərc edir.**

Aşotyanın erməni düşüncəsinə görə, Avropa rəsmiləri Türkiyədən əvvəl, gəlib ermənilərin halını soruşmalı idilər. Çünki Ermənistan bu bölgədə xristian dünyasının "gözüdür". Yəni dünyanın ilk xristian ölkəsidir. Amma nə Mişel, nə də Ursula Ankaradakı görüş zamanı "böyük erməni xalqına qarşı edilən təcavüz" barədə heç nə danışmadılar. Əvəzində silahlıların Liviyadan geri çəkilməsinin zəruriliyindən danışdılar.

...Bu gün Vaşinqton-Brüssel və Moskva-Pekin cütlükləri arasında Türkiyə üçün çılğın mübarizə getdiyini biz ermənilər də görürük. Amma buna baxmayaraq, avropalı rəsmilərin erməni xalqından "nəvaziş"lərini əsirgəməsi biz ermənilər yaman üzür. Əslində, bütün bunların günahkarı Nikol Paşinyan olmaqla Ermənistan hakimiyyətidir. Hazırda onların hakimiyyətdə qalmaqda əsas məqsədləri bizi geopolitik sövdələşməyə çevirməkdir.

Məsələn, sabah Türk dünyasının ən yaxın dostu Pakistanın Ermənistana qarşı siyasətini tənzimləmədən(?) Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında və ya Avrasiya İqtisadi Birliyində təmsil olunması biz ermənilərə təəccüblü gəlməyəcək.

Çünki son iki gündə Rusiya Xarici İşlər naziri Sergey Lavrovun İslamabada baş tutan səfəri şimal müttəfiqimizin biz ermənilərə qarşı göstərdiyi "ən aşağı dəyər" kimi qəbul edilməlidir. Əslində, biz müttəfiq bildiyimiz dövlət rəsmisinin 9 illik fasilədən sonra Pakistana etdiyi səfəri çoxsaylı qlobal və regional proseslər kontekstində nəzərdən keçirməliyik. Eşitdiyimizə görə, Rusiya Pakistana hərbi və hərbi-texniki əməkdaşlıq proqramı təklif edib.

Biz ruslara xatırlatmaq istəyirik ki, onların maraq göstərdiyi Pakistan Vaşinqton və Pekin ilə çox isti, həm də strateji əlaqələrə sahib olan bir ölkədir. Bundan başqa bu ölkə Türkiyənin müttəfiqidir. Həmişə də Azərbaycanı dəstəkləyib. Bundan başqa, indi Rusiyanın "qucaq açmaq" istədiyi Pakistan Ermənistana rəqib bir dövlətdir. Görən, İslamabada səfər edən rus rəsmisi bunu nəzərə alıbmı? Bundan əlavə, bu rusların Qafqazdakı "ən sədaqətli" müttəfiqlərinə qarşı etdikləri hörmətsizlik deyilmi?

Maraqlıdır ki, Armen Aşotyan Rusiyanın bu addımı atmasında "günahkar" kimi Ermənistan Xarici İşlər Nazirliyini görür: "Niyə Xarici İşlər nazirimiz vaxtında Lavrovu məlumatlandırmayıb, pakistanlıların ermənlərə yaxşı münasibət göstərmədiklərini ona deməyib?

Ona görə də, sabah Pakistanın Ermənistanla "dost olmaq üçün minnətçi düşmədən" Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında və ya Avrasiya İqtisadi Birliyində təmsil olunması biz erməniləri təəccübləndirməyə bilər".

***Ağasəf Babayev***



# Simasız müxalifətin yeni riyakar əməlləri üzə çıxır

Azərbaycan cəmiyyətində müxalifətə bəslənən dərin nifrətə baxmayaraq AXCP, Müsavat, "Milli Şura" kimi qondarma qurumların satqın məxluqları öz amplualarından əl çəkmirlər. Hər dəfə sosial şəbəkələr vasitəsilə sərsəm, anormal fikirlərini, şər və böhtanlarını yaymaqda davam edirlər. Hər dəfə də, müxalif ünsürlərin yaydıqları şər və böhtan xarakterli məlumatlara dərhal xaricdəki ağaları reaksiya verir və hayküylü bəyanatlar, hesabatlarla məsələni şişirtməyə çalışırlar. Buna misal kimi, "Freedum Hous", "Soros" və bu kimi digər qərəzli məkr yuvalarını göstərmək olar. "Freedum Hous" sifariş əsasında konkret dövləti hədəfə alır, ənənəvi qərəzli tezislərdən istifadə etməklə, filan ölkədə insan hüquqları sahəsində və demokratik proseslərdə problemlərin olduğunu iddia edir. Corc Sorosun təsisçisi və rəhbəri olduğu "Soros" fondunun fəaliyyəti də hər kəsə bəllidir. Azərbaycan cəmiyyəti bu təşkilatın erməni lobbisinin əlində Azərbaycana qarşı bir istifadə olunan alət olduğunu çox yaxşı bilir. Ona görə də, Azərbaycan cəmiyyəti bu təşkilatın yaydığı hesabatları ciddi sənəd kimi qəbul etmir. Amma AXCP, Müsavat, "Milli Şura" rəhbərliyi bunun fərqində deyillər. Əli Kərimli, Arif Hacılı, Cəmil Həsənli kimi ünsürlər birbaşa xarici maraqlı dairələrin Azərbaycandakı əlaltıları rolunda çıxış edirlər. Hətta bəzən bunu açıq şəkildə nümayiş etdirirlər. Nədi-nədi sözügedən təşkilatlar onlara maliyyə yardımları ayırır. Məhz pul xətrinə dövrədə olmaqla Azərbaycanın milli və dövlətçilik maraqlarına qarşı mübariz metodu seçirlər. Göstərişə əsasən, onlar gah mitinqlər, küçə yürüşləri keçirir, gah da hədələyici bəyanatlarla çıxışlar edirlər. Amma reallıq ondan ibarətdir ki, müxalifətin istənilən pozucu aktları iflasa uğrayır. Həm də, cəmiyyətin inkişafına əngəllər yaratmaq niyyəti fiaskoya uğrayır. Bu, onunla bağlıdır ki, Azərbaycanda bu və ya digər qüvvələrin maddi-siyasi dəstəyilə dövlətin əsaslarının laxladılması dövrü artıq geridə qalıb. Məhz kənar müdaxilələrin tarix boyu Azərbaycan dövlətçiliyinin qərar tuta bilməməsinin əsas səbəbi olduğundan bu gün siyasi şüur və siyasi mədəniyyət səviyyəsi yüksək olan cəmiyyətimiz "ölkənin gələcəyi onun keçmişində baş verənləri doğru dərk edənlərindir" prinsipinə əsaslanaraq, radikal müxalifətin antimilli çağırışlarına cavab verməyib. Bu səbəbdən də, xalq hər dəfə dövlətçiliyə və milli maraqlara zidd addımlar atan və xarici siyasi qüvvələrin əlində təzyiq alətinə çevrilmiş radikal müxalifəti qəbul etmir.

Bir sözlə, dağıdıcı müxalifət ünsürləri hər zaman ölkəmizin milli maraqlarına zərbə vurmaqla məşğul olublar. Bu tendensiyanı iyrənc şəkildə bu gün də davam etdirirlər. Artıq sübut olunub ki, Sorosun ayırdığı pullar hesabına doymuş məhlula çevrilən AXCP və Müsavat rəhbərliyi müəyyən sayda gənci "siyasi mühacir" adı altında xarici ölkələrə göndərib. Sonradan xaricə üz tutan gənclər səhvlərini başa düşüb, onları gedər-gəlməzə yola salan müxalifət liderlərini ifşa ediblər. Məlum olub ki, Ə.Kərimli, İ.Qəmbər, A.Hacılı 2500-3000 manat pul almaqla, onlara partiya vəsiqəsi verərək, həmin şəxsin guya mitinqlərdə polislər tərəfindən təzyiqlərə məruz qaldığını qeyd ediblər. Bu ifşaedici faktlardan sonra da sözügedən partiya sədrlərinin öz bəd əməllərini davam etdirmələri o fikri yaradır ki, bu adamlar əxlaqdan və mənəviyyatdan, həqiqətdən də, uzaqdırlar. Məhz bu amil onları məhvə sürükləyir. Proseslər və araşdırmalar da təsdiq edir ki, bu gün müxalif düşərgə ən acınacaqlı günlərini yaşamaqdadır. Növbəti parçalanmalar, qopmalar da qaçılmazdır. Bununla belə, müxalifətdə belə parçalanmaların baş verməsinin hazırkı şəraitdə qarşısını almaq da mümkün deyil. Çünki uzun illərdən bəri yığılıb qalmış intriqalar, dedi-qodular birgə addımlamağa, konkret məqsədlər uğrunda mübarizə aparmağa imkan vermir. Bu baxımdan demək olar ki, yaxın günlərdə AXCP, Müsavat kimi dağıdıcı fəaliyyət yolu seçən partiyalar növbəti dəfə parçalanacaq və ya hansısa partiyaya birləşəcəklər.

Sonda isə onu qeyd etmək olar ki, Azərbaycanın inkişaf tarixinin 30 illiyi dönəmində təkcə dəyişməyən ünsür dağıdıcı müxalifətdir. Səbəb də, onların xarici qüvvələrdən maddi və mənəvi baxımdan asılı olmaları və öz ağğalarına uyğun siyasət aparmamalarıdır. Belə anormal müxalifət təbii ki, məhvə məhkumdur, necə ki, artıq bunun nəticələri görünməkdədir.

***İ.ƏLİYEV***

# Putinin Paşinyana Qarabağla bağlı xəbərdarlığı

## Aleksandr Şarovski: “Bu faşistlərin torpaqlarımızla etdikləri dəhşətli bir kabusdur”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi” istiqaməti çərçivəsində hazırlanıb*

*Verilişə buradan baxa bilərsiniz*

*https://www.youtube.com/watch?v=eOm-htH1dPE*

***Moskva-Baku platformasında İnna Lisovskayanın təqdimatında yayımlanan “Moskva-Baku bu gün” analitik verilişində regionumuzda gedən proseslərlə bağlı maraqlı məsələlərə toxunub. Verilişi yazı və video formasında oxucularımıza təqdim edirik.***

### Danışıqların mərkəzində

Moskvada Rusiya prezidenti Vladimir Putinlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən danışıqlar zamanı Rusiya lideri qeyd etdi ki, bu gün ən aktual və kəskin problem Qarabağdakı vəziyyətin normallaşmasıdır.

Sitat: “Əlbəttə, ikitərəfli münasibətlərin qurulması baxımından danışacağımız bir şey var və əlbəttə ki, ən aktual, ən kəskin problemlər Qarabağdakı vəziyyətin normallaşdırılmasıdır”

Putin Qarabağdakı ticarət-iqtisadi əlaqələrin və nəqliyyat yollarının bərpasının bölgədəki münaqişədən sonrakı yenidənqurma işinin ən vacib komponenti olduğunu söylədi və qeyd etdi ki, bu, Ermənistanın inkişafı üçün yeni imkanlar açacaq.

Öz növbəsində, Ermənistan Baş naziri Qarabağda Rusiya sülhməramlılarının mövcudluğunun bölgədəki sabitlik və təhlükəsizliyin təmin edilməsində əsas amil halına gəldiyini bildirdi və Rusiya Prezidentinin hərbi əməliyyatlar bitdikdən sonra bölgədəki sabitliyə şəxsi töhfəsini qeyd etdi.

Ermənistan baş naziri, həmçinin Rusiya lideri ilə regiondakı, Qarabağdakı və Ermənistandakı təhlükəsizlik sisteminin qurulmasına dair fikirləri müzakirə edəcəyini gözlədiyini qeyd etdi. Bundan əlavə, baş nazir “Rusiya-Ermənistan birləşmiş qüvvələr qrupunun fəaliyyətinin bəzi nüanslarını” müzakirə etmək niyyətində olduğunu söylədi.

Həmçinin, Ermənistanın baş naziri Putinlə görüşdə Bakı ilə İrəvan arasındakı hərbi məsələnin imzalanmasından sonra Azərbaycan tərəfindən Ermənistana verilməyən erməni hərbçiləri ilə bağlı məsələnin həll olunmadığını qeyd etdi və bunun həll olunmasını istədi. Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli bəyanatına əsasən, müharibə bitdikdən son ələ keçən və hazırda Bakıda saxlanan erməni silahlıları terrorçu və təxribatçı hesab olunur.

Rusiya prezidenti və Ermənistan baş nazirinin ikitərəfli əməkdaşlıq mövzusunun geniş spektrini müzakirə etdikləri bildirilir. Xüsusilə Rusiya lideri Rusiya və Ermənistanın yaxın gələcəkdə ticarəti bərpa edəcəklərinə inandığını bildirdi. Bundan əlavə, görüş zamanı Ermənistana Rusiyada koronavirus əleyhinə peyvəndin tədarükü, habelə Ermənistanda nüvə elektrik stansiyası tikintisi məsələsi müzakirə edildi.

Qeyd edək ki, liderlər tərəfindən Qarabağla bağlı Rusiya, Azərbaycan və Ermənistan arasında üçtərəfli bəyanat imzalandıqdan sonra ölkədə davam edən müxalifət etirazları fonunda respublikada növbədənkənar parlament seçkiləri ərəfəsində Ermənistanın baş naziri Nikol Paşinyanın Moskvaya səfərinə politoloqlar böyük əhəmiyyət verirlər. Mütəxəssislər qeyd edirlər ki, Ermənistan dövlətinin başçısı Moskvaya səfər edərək Kremlin dəstəyini almağa çalışır və bununla da seçki kampaniyasına başlayır.

Əlavə edək ki, Rusiya və Ermənistan liderlərinin Moskva görüşü fonunda İrəvandakı vəziyyət yenidən kəskinləşdi. Beləliklə, Sorosun Ermənistandakı xarici agent şəbəkəsinə qarşı mübarizə ideyasını irəli sürən, əksərən Veto hərəkatının üzvləri olan onlarla qadın geniş miqyaslı yürüş və Ermənistan Baş naziri Nikol Paşinyanın istefasını tələb edən etiraz nümayişləri təşkil etdilər. Aksiya iştirakçıları ilə polis arasında insident yarandı. Etirazçılar yürüşə Şarl Aznavur meydanından başlayaraq Respublika Meydanında hökumət binasında dayandılar. Etirazçılar polis kordonunu qıraraq hökumət binasına girməyə çalışdılar, amma dayandırıldılar. Sonra etirazçılar polisə və binanın özünə yumurta atmağa başladılar. Təhlükəsizlik qüvvələri bəzi fəalları nəzarətə götürdü.







### Dini icmaların rəhbərləri Qarabağda

Bu həftə Azərbaycanın dini icmalarının rəhbərləri işğaldan azad edilmiş Ağdam şəhərini ziyarət etdilər. Səfərdə Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, İdarənin Qazılar Şurasının üzvləri, Rus Pravoslav Kilsəsinin Bakı-Azərbaycan Yeparxiyasının, Azərbaycanın Dağ Yəhudiləri icmasının nümayəndələri, Bakıdakı Avropa Yəhudi icması və başqaları da iştirak etdilər. Ağdamdan əvvəl dini icmaların rəhbərləri Bərdə şəhərindəki Şəhidlər Xiyabanını və Cümə məscidini ziyarət etdilər.

Səfər iştirakçıları Azərbaycanın milli qəhrəmanlarının məzarlarını, habelə Qarabağ xanlarının abidələri kompleksini və İmarət qəbiristanlığını ziyarət etdilər.

Dini liderlərdən ibarət nümayəndə heyəti Ağdamın işğalının nəticələri ilə tanış oldular, Ağdam məscidini ziyarət etdilər.

Qafqaz Müsəlmanları İdarəsinin rəhbəri Allahşükür Paşazadə bu torpaqların ermənilərə məxsus olmadığını vurğuladı, qeyd etdi ki, əks təqdirdə yerli ziyarətgahları bu cür vandalizmə məruz qoymaq mümkün olmazdı.

Rus Pravoslav Kilsəsi Bakı Yeparxiyasının mətbuat xidmətinin rəhbəri, keşiş Konstantin Pimanov işğaldan azad edilmiş torpaqların tam bərpa edə biləcəyinə, evləri, məktəbləri, xəstəxanaları bərpa edə biləcəyinə inandığını bildirdi. “Düzəldilməyəcək yeganə şey, əzizlərini itirmiş insanların ruhlarındakı ağrıdır. Onları və müqəddəs torpağımızı yaralayanlara lənət oxuyuram”- o dedi.

Xatırladaq ki, İslam Əməkdaşlıq Təşkilatının nümayəndə heyəti də bir gün əvvəl işğaldan azad edilmiş əraziləri ziyarət etmişdi.

Eyni zamanda, Şarovski Azərbaycanın azad edilmiş torpaqları yenidən firavan bir diyara çevriləcəyinə əmindir.

Sitat: İstərdim ki, bura bir müddətdən sonra yenidən çiçəklənən bir torpaq olsun, burada uşaqların gülüşləri səslənsin, evliliklər bağlansın, insanlar mahnı oxuyub əylənsinlər- həm də təkcə Ağdamda deyil. Şuşa isə Azərbaycanın tacındakı bir incidir ... Hər şeyin əvvəlki vəziyyətinə qayıtması üçün, müharibədən əvvəlki kimi və hətta ondan daha da yaxşı olması üçün dua edirik”

Bakıdakı Avropa Yəhudiləri Cəmiyyətinin rəhbəri Aleksandr Şarovski jurnalistlərə burada belə bir kabus görəcəyini düşünmədiyini etiraf etdi.

Sitat: “Gördüklərimdən bunun bir qiyamət olduğunu, hər şeyin xəyal olduğunu düşündüm. Minaxtaranlar hər 20 metrdən bir yolun kənarında dayanıb minaları müqəddəs torpağımızdan çıxarırlar. Çiçəklənən Ağdam şəhərindən heç nə qalmayın. Dürüst desəm, səfərin əvvəlində üzümüzdə təbəssüm var idi, amma indi bu təbəssüm ola bilməz. Bu faşistlərin torpaqlarımızla etdikləri dəhşətli bir kabusdur”

### Axtarış zamanı minalar partlayır

Azərbaycan Silahlı Qüvvələrinin 2 hərbçisi dünən 2-ci Qarabağ müharibəsi zamanı döyüş əməliyyatları zamanı itkin düşən əsgərləri axtararkən minaya düşüblər. Hər 2 hərbçi yaralanıb. Bu barədə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin mətbuat xidməti məlumat verib.

Məlumata görə, Azərbaycan ordusunun hərbçilərinin gün ərzində Suqovuşan qəsəbəsi istiqamətində apardıqları axtarış işləri zamanı 2-ci Qarabağ müharibəsi zamanı geri çəkilmə zamanı erməni silahlı birləşmələri tərəfindən yerləşdirilmiş piyadaya qarşı mina partlayıb.

Müdafiə Nazirliyinin mətbuat xidməti yaralı hərbçilərin həyatı üçün heç bir təhlükə olmadığını açıqladı.

Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev mütəmadi olaraq erməni tərəfinin mina sahələrinin xəritələrini əsla təhvil vermədiyini, bunun itkilərin qarşısını almağa kömək edəcəyini vurğulayır. Eyni zamanda, dövlət başçısı dəfələrlə mülki şəxsləri partlayış təhlükəsi səbəbindən işğaldan azad edilmiş ərazilərə səfərdən imtina etməyə çağırıb.

Azərbaycan Xarici İşlər Nazirliyi bu yaxınlarda 10 noyabrdan- 2-ci Qarabağ müharibəsi bitdikdən sonra 14 mülki şəxsin və 6 hərbi qulluqçunun mina partlayışlarının qurbanı olduğunu açıqlayıb. Bundan əlavə, 85 nəfər (bir gün əvvəl minaya düşənləri nəzərə almasaq) yaralanıb.

***Müəllif - İnna Lisovskaya***
***Tərcümə - Elçin Bayramlı***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

QARABAĞ AZƏRBAYCANDIR!

9 aprel

## Fənərbaxçanın yunan ulduzuna möhtəşəm təklif



**Mövsümün əvvəlində “PAOK”dan Fənərbaxçaya transfer olunan Dimitris Pelkas, bu mövsüm 33 oyunda 8 qol vuraraq, öz dəyərini qaldırıb. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, Fənərbaxçaya transfer zamanı bazar dəyəri 2,5 milyon avro olan yunan ulduzu indi 6 milyon avro olub. Fənərbaxçadakı möhtəşəm çıxışından sonra, Avropanın yüksək liqalarından Pelkas üçün təkliflər gəlməyə başlayıb.**

Qeyd edək ki, daha əvvəl Pelkas üçün 7 milyon avro təklifi ilə Fənərbaxçanın qapısını döyən Rubin Kazan, bu təklifi 10 milyon avroya qaldırıb. Rus klubu rəsmiləri ilə görüşdə 15 milyon avrodan aşağı güzəşt etməyən Fənərbaxça, “mövsümün sonunda görüşək” cavabını verib.

***Arzu Qurbanzadə***

## Evdə koronavirusdan necə müalicə olunmaq olar?

### İnfeksionistin tövsiyələri



Tanınmış həkim-infeksionist Mariya Myasnikova, virusdan ev şəraitində müalicə olunmağın və xəstəliyin ağır bir formasının başlamaması üçün nə edə biləcəyimizi izah edir. Mütəxəssisin sözlərinə görə, COVID-19 xəstələri üçün ilk və ən vacib şərt həkimin tövsiyələrinə və reseptlərinə uyğunluqdur. Ancaq dərman qəbul etməklə yanaşı, bir sıra digər vasitələr xəstənin vəziyyətini yüngülləşdirməyə və infeksiyanın daha ağır formaya keçməsinin qarşısını almağa kömək edəcəkdir.

“İstiliyi azaltmaq üçün bədən mayeni buxarlatmalıdır. Koronavirus infeksiyasına yeni yoluxduqda bol maye qəbul edin. Bir insan normal olaraq gündə təxminən iki ilə iki yarım litr su istehlak edərsə, yüksək temperaturda miqdarını artırmaq və vitaminlərlə möhkəmləndirilmiş bir içki əlavə etmək lazımdır. C vitamini ilə zəngin meyvələri unutmayın”, - “Moskva” şəhər xəbərləri agentliyi həkimdən sitat gətirir.

Myasnikovaya görə, COVID-19 müalicəsi zamanı daha çox mədəsi üstə yatmalısınız, çünki bu, qanın oksigen ilə iki-üç qat daha çox təmin olunmasına və ağciyərlərin genişlənməsinə kömək edir, xüsusən də yastıqları sinənin və çanağın altına qoyduqda. Arxası üstə yatarkən, insanda ağciyərlərin tənəffüs həcmi azalır, buna görə də bədənin belə bir vəziyyətdə olması tövsiyə edilmir. Kök insanların yanpörtü uzanması daha yaxşıdır.

Tənəffüs məşqləri sağalmanı sürətləndirməyə kömək edəcəkdir. Əvvəlcə minimal olmalıdır. Vəziyyət sabitləşdikcə məşqlər yaxşılaşdırıla bilər. “Bir sıra məşqlər üçün xüsusi tövsiyələr həkim tərəfindən verilir. Sağalma mərhələsində ciddi fiziki fəaliyyəti istisna etmək, daha çox istirahət etmək lazımdır. Bu, evdəki bir insanın özünə kömək edə biləcəyi ən sadə metodlardır”- deyə infeksionist öz fikrini yekunlaşdırıb.

***Elçin***

## XƏBƏRDARLIQ:
## Hava kəskin dəyişəcək



Milli Hidrometeorologiya Xidmətinin məlumatına görə Bakıda və Abşeron yarımadasında aprelin 9-dan 10-na keçən gecədən başlayaraq 12-dək şimal-qərb küləyinin əsəcəyi, 15-20, arabir 23-25 m/s, 10-u gün ərzində, 11-i gecə və səhər bəzi yerlərdə arabir 28 m/s-dək güclənəcəyi gözlənilir. SİA-ya Bu barədə Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.

Qeyd edilib ki, Azərbaycanın əsasən şimal və qərb rayonlarında aprelin 10-u günün ikinci yarısından 12-si gündüzədək şimşək çaxacağı, fasilələrlə yağış yağacağı, bəzi yerlərdə intensiv olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Qərb küləyi əsəcək, arabir 18-23 m/s, 10-11-də ayrı-ayrı yerlərdə arabir 25-30 m/s-dək güclənəcək. Çaylarda sululuğun artacağı gözlənilir.

## “Barselona” 9 futbolçu ilə yolları ayırır



“Barselona”nın bu yay yollarını ayıracağı futbolçuların adına aydınlıq gəlib. Qol.az İspaniya mətbuatına istinadən xəbər verir ki, baş məşqçi Ronald Kuman 9 oyunçunu komandasının heyətində düşünmür. Həmin futbolçular arasında Filipe Koutinyo, Samuel Umititi, Usman Dembele, Miralem Pyaniç, Serjio Roberto, Martin Braytvay, Junior Firpo, Karles Alena və Mateus Fernandes var. Kapitan Lionel Messinin gələcəyi isə qeyri-müəyyən olaraq qalır.

Qeyd edək ki, “Barselona” hazırda La Liqanın turnir cədvəlində 65 xalla 2-cidir. Kataloniya klubu lider “Atletiko”dan cəmi 1 xal geri qalır.

## Keçmiş məhkum evdən oğurluq etdi




Sabunçu rayonu ərazisindəki evlərin birindən pul oğurlamaqda şübhəli bilinən E.Mayılov saxlanılıb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Sabunçu RPİ 15-ci PB əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində martın 30-da rayon ərazisindəki evlərin birindən 950 manat pul oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş E.Mayılov saxlanılıb.

## ŞOK: 500 milyon hesab oğurlanıb



**Sosial media platforması olan “LinkedIn”də 500 milyon istifadəçinin məlumatları oğurlanıb. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, forumlarda yazı yerləşdirən hakkerlər 500 milyon “LinkedIn” istifadəçisinin məlumatlarına sahib olduqlarını söyləyiblər. Məlumatı sübut etmək üçün hakkerlər 2 milyon istifadəçinin məlumatlarından bir nümunə paylaşıblar. Dörd ayrı sənəddən ibarət 2 milyon nəfərlik siyahıda istifadəçilərin adları, e-poçt adresləri, telefon nömrələri, iş məlumatları daxil edilib.**

**Qeyd edək ki, ötən həftə “facebook” sosial media platformasında qeydiyyatdan keçən 530 milyondan çox istifadəçinin məlumatları oğurlanıb.**

***Baş redaktor:***

**Bəhruz Quliyev**

***Baş redaktorun müavinləri:***

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.**
**“Azərbaycan” nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**